QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 243 (5963) **29 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Yeni 2020-ci il - daha sıx həmrəyliyə doğru

*Prezident İlham Əliyev: "...Azərbaycanın bu günü və aydın sabahı naminə..."*



Səh 2

3

"Yeni Azərbaycan Partiyası, sözün həqiqi mənasında, möhtəşəm siyasi gücdür



7

DİN və Baş Prokurorluq Oqtay Gülalıyev ilə bağlı birgə məlumat yayıb



13

İqtisadi göstəricilər Paşinyanı dalana dirəyib...



# Yeni 2020-ci il - daha sıx həmrəyliyə doğru

## *Prezident İlham Əliyev: "...Azərbaycanın bu günü və aydın sabahı naminə..."*




***31 dekabr - bu gün Azərbaycan xalqının tarixində ən yadda qalan, ən şərəfli günlərdən biri - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!***

Bu günün əsası 1989-cu ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Azərbaycan sərhədinin (SSRİ - İran sərhədinin) dağıdılması ilə qoyulub. Uzun zaman bir-birinə həsrət qalan Azərbaycan millətinin Arazın hər iki sahilində sərhəd yürüyüşü - Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəklərini yıxması, o taylı-bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, əslində, azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırmağa və Azərbaycanı bütövləşdirməyə cəhd idi. Həmrəylik günü bu birləşmək istəyinin simvolik nişanıdır.

### Azərbaycançılıq məfkurəsi sarsılmaz birliyin təcəssümüdür

Prezident İlham Əliyev Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə dekabrın 25-də dünya azərbaycanlılarını təbrik edib.

Dövlətimizin başçısı təbrikdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi günün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edildiyini bildirib.

Ümummilli Lider 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün dövlət bayramı kimi qeyd edilməsi, xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq, artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda, dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir və fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil və suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da, məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına və yaşamasına qayğı təşkil edir".

### Müstəqillikdən keçən şərəf yolu

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrikində onu da qeyd edib ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi, bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş və insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

### Azərbaycan - sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub-saxlanıldığı unikal məkan

Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən, Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və növbəti üç ildə bu hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir. Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda "Nəsimi İli"nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. "Nəsimi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi olmuşdur.

### Əzəli və əbədi Azərbaycan torpağı Qarabağın azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyil

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev təbriki zamanı, əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı günün tez bir zamanda həll olunacağının da deyib: "Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram".

***RƏFİQƏ KAMALQIZI***

# Daha güclü inkişaf, daha sürətli tərəqqi

## Əli Əhmədov: "Yeni Azərbaycan Partiyası, sözün həqiqi mənasında, möhtəşəm siyasi gücdür"

***"Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərdə iştirak etmək üçün namizədlərini müəyyən etdi. Cəmiyyətin və siyasi partiyaların bizim namizədləri elan edəcəyimiz günü səbirsizliklə gözlədiklərini bilirdim. Bu, ondan xəbər verir ki, Yeni Azərbaycan Partiyası, sözün həqiqi mənasında, möhtəşəm siyasi gücdür. Hamı, bütün siyasi partiyalar - bizə rəqib olanlar da, bu fikrə düşməyi ağıllarına belə gətirməyən partiyalar da bu gücü etiraf edirlər." Bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov öz rəsmi "facebook" səhifəsində paylaşıb.***




Əli Əhmədov qeyd edib ki, namizədlərin sırasında çoxlu gənclər var: "Bunu təbii qəbul etmək lazımdır. İnanıram ki, 2020-ci il fevral ayının 9-da seçicilərin əksəriyyəti Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcək, Prezident İlham Əliyevin islahatlar strategiyasına öz dəstəklərini növbəti dəfə göstərəcəklər. Yeni Azərbaycan Partiyası olaraq, həmişəki kimi, maraqlı və gərgin seçki kampaniyası aparacağımıza əminəm. Partiyamıza və ayrı-ayrılıqda hər bir namizədimizə uğurlar arzulayıram."

### Müstəqil Azərbaycanın yeni tarixini əks etdirən Yeni Azərbaycan Partiyası

Yarandığı gündən bu günə kimi, müstəqil Azərbaycanın keçdiyi şanlı yolun böyük və əhəmiyyətli hissəsi, bilavasitə Yeni Azərbaycan Partiyasının adı ilə bağlıdır. Əslində, Yeni Azərbaycan Partiyasının 27 illik tarixi, müstəqil Azərbaycanın yeni tarixini əks etdirir. Çünki partiya yarandığı gündən ölkədə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edib, müstəqil Azərbaycanın yüksəlişinə və tərəqqisinə öz töhfələrini əsirgəməyib. Zamanın sınaqlarından uğurla çıxan demokratik və sivil cəmiyyətdə xüsusi fəaliyyəti ilə seçilən Yeni Azərbaycan Partiyası yüz minlərlə insanı bir ideologiyada - Ulu Öndər Heydər Əliyev ideologiyasında birləşdirib. Əlbəttə, uzun və keşməkeşli yol qət edən və hazırda iqtidar partiyası kimi istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə öz sözünü deyən YAP, bütün mənalarda, Azərbaycanın inkişaf və tərəqqisində öz nəhəng töhfələrini verməkdə davam edir. Bu partiyanın üzvü olan hər bir kəs bunu qürur və əqidə mənbəyi olaraq qiymətləndirməkdədir. Ölkəmizdə Ulu Öndər Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan ən güclü, ən monolit siyasi təşkilat olduğunu, ictimai nüfuzuna görə onunla müqayisə edilə biləcək ikinci partiyanın mövcud olmadığını fəaliyyəti ilə təsdiq edib. Yeni siyasi fəlsəfə ilə, yeni baxışlarla ölkənin siyasi meydanına qədəm qoyan partiya, qısa bir zamanda, böyük və nüfuzlu siyasi təşkilat olduğunu sübut edib. Azərbaycan Respublikasının Prezidenti, partiyanın Sədri İlham Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyası Cənubi Qafqaz regionunun ən güclü siyasi qüvvəsinə çevrilib.

Ötən 27 ildə keçdiyi fəaliyyət yolunu nəzərdən keçirsək, bizlər eyni zamanda, YAP-ın timsalında xalq-iqtidar vəhdətinin şahidlərinə çevrilmişik. Əbəs yerə deyil ki, bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 750 mindən çox insanı birləşdirir və onların 40 faizi gənclərdir. Ümumiyyətlə, geridə qoyulan hər bir il partiya üçün öz əlamətdarlığı ilə seçilmişdir. Bu baxımdan, 2019-cu il də Yeni Azərbaycan Partiyası tərəfindən uğurla başa çatdırılmaqdadır. Cari il ərzində, YAP bir çox mühüm fəaliyyətləri ilə ölkəmizin inkişaf və tərəqqisinə öz töhfələrini verib. Partiyanın Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici, eləcə də, məqsədyönlü və müdrik siyasətinin tərkib hissəsində yer alan Yeni Azərbaycan Partiyasının əldə edilən hər bir uğurda, hər bir nailiyyətdə öz rolu və yeri mövcuddur. Partiya tərəfindən keçirilən tədbirlər, verilən qərarlar və onların icrası, reallaşdırılan çoxsaylı kampaniyalar bu il də davam etdirilib. Xüsusilə, ətraf mühitin qorunmasında və mühafizəsində daim öndə olan YAP-ın təşəbbüsləri sırasında baş tutan ağacəkmə kampaniyaları bu gün də tam sürətlə davam etdirilməkdədir. Azərbaycanın dahi şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsünün bütün regionlarda reallaşdırılmasında Yeni Azərbaycan Partiyası daha yüksək fəallıq nümayiş etdirdi.

Ulu Öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir" fikirləri hər bir dövr üçün aktuallığını qoruyur. Bu faktoru, xüsusi olaraq vurğulamaq lazımdır ki, partiya sıralarına gələnlərin əksəriyyətinin gənclər olması Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin xalqımızın bütün təbəqələrinin, xüsusən, gənclərin arasında yorulmaz fəaliyyəti, misilsiz xidmətləri ilə daha böyük inam və etibar, hörmət və nüfuz qazanmasını təsdiq edir. Bu, ondan xəbər verir ki, Azərbaycan gəncliyi öz potensial imkanlarını ortaya qoymaq üçün bu partiyada meydan görür.

Yeri gəlmişkən, onu da vurğulamaq lazımdır ki, noyabrın 14-də Heydər Əliyev Mərkəzində partiyanın yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində çıxış edən Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev Cənabları hakim siyasi təşkilatın fəaliyyəti ilə bağlı bir çox əhəmiyyətli məqamlara toxunaraq, vurğulayıb ki, əldə edilən bütün uğurlarda YAP-ın, onun üzvlərinin böyük zəhməti və rolu var: "Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti və rolu var. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var. Mən bu gözəl yubiley münasibətilə partiyamızın bütün üzvlərini bir daha təbrik etmək istəyirəm. Yeni Azərbaycan Partiyasına yeni uğurlar, qələbələr arzulayıram".

Beləliklə, bu gün Azərbaycanın inkişaf və tərəqqisində xüsusi yeri olan Yeni Azərbaycan Partiyası növbəti 9 fevral parlament seçkisinə, ümumiyyətlə, 2020-ci ilə böyük inam və qələbə ruhu ilə getməkdədir.

Bu yerdə Azərbaycan Respublikası Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun əvvəldə dediyi fikirini bir daha vurğulamaq istərdim: "İnanıram ki, 2020-ci il fevral ayının 9-da seçicilərin əksəriyyəti Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcək, Prezident İlham Əliyevin islahatlar strategiyasına öz dəstəklərini növbəti dəfə göstərəcəklər".

***RƏFİQƏ KAMALQIZI***

# "16 nəfərin namizədliyi qeydə alınıb"

"Azərbaycanda 2020-ci ilin fevralın 9-a təyin edilmiş növbədənkənar parlament seçkilərində iştirak etmək üçün indiyə qədər 1611 nəfər müraciət edib". SİA-nın xəbərinə görə, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın dünən keçirilən iclasında deyib. Onun sözlərinə görə, namizədlərin 293 nəfəri 17 siyasi partiya tərəfindən irəli sürülüb: "13 nəfər təşəbbüs qrupları tərəfindən, 1305 nəfər isə fərdi qaydada namizədliyini irəli sürüb". M.Pənahov bildirib ki, həmin müraciət edən şəxslərin 1202 nəfərinin namizədliyi artıq təsdiq olunub: "Onlardan 1012 nəfəri isə imza vərəqələrini artıq götürüb, 124 nəfəri qaytarıb, 16-ı isə qeydə alınb. 56 nəfər isə seçkilərdə iştirakını dayandırıb".



# DSX Akademiyasında Nəsiminin 650 illik yubileyinə həsr edilmiş tədbir keçirilib

Görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş silsilə tədbirlər Dövlət Sərhəd Xidmətində (DSX) də böyük təntənə ilə təşkil olunur. Hərbi hissə və bölmələrdə keçirilən seminarlarda, ədəbi-bədii gecələrdə elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak edirlər.



DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, silsilə tədbirlər çərçivəsində Dövlət Sərhəd Xidmətinin Akademiyasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru, professor Bədirxan Əhmədlinin və AMEA-nın filologiya üzrə fəlsəfə doktoru, nəsimişünas alim Səadət Şıxıyevanın iştirakı ilə mərasim keçirilib. Tədbirdə Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustası, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış, bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmiş, dərin poetik fikirləri ilə dövrün elmi-fəlsəfi düşüncələrinin ifadəçisinə çevrilmiş, adı mərdlik, fədakarlıq və iradə rəmzi kimi çəkilən dahi İmadəddin Nəsiminin həyat və yaradıcılığı barədə ətraflı məlumat verilib.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olması və məhz dahi öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyinin UNESKO-nun tədbirləri siyahısına daxil edilməsi və 1973-cü ildə beynəlxalq miqyasda qeyd edilməsi xüsusi vurğulanıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə 2017-ci ildə Parisdə Nəsiminin ildönümünün qeyd olunması, ötən il Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə Nəsimi poeziya festivalının keçirilməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama əsasən 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması ölməz şairin yaradıcılığına, onun irsinə növbəti töhfə olmaqla yanaşı, bütövlükdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə və milli-mənəvi dəyərlərimizə dövlətimiz tərəfindən göstərilən ehtiramın ifadəsi olduğu böyük minnətdarlıqla qeyd edilib. Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin kursantları tərəfindən İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr edilmiş ədəbi-bədii kompozisiya nümayiş olunub.

# "Şahdağ" turistləri cəlb edən dağ-xizək kurortudur

***Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların nəticəsində, Azərbaycanın bütün sahələrində böyük nailiyyətlərə imza atılmışdır. Ölkə iqtisadiyyatının strateji istiqaməti sayılan turizm sektorunda da aparılan islahatlar öz nəticəsini verib. Azərbaycanın ən məşhur brend şəbəkəli mehmanxanalarının Azərbaycanda olmasının nəticəsidir ki, dünyanın ən sayılıb-seçilən hotelləri ilə müqayisədə diqqətçəkəndir. Turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb. Dövlətimizin başçısının səyləri nəticəsində, Azərbaycan dünyanın cəlbedici turizm ölkələrindən birinə çevrilib. Azərbaycanda olan bütün amillər turizmin sürətli inkişafını şərtləndirir. Təhlükəsizlik, qonaqpərvərlik, tarixi abidələrimiz, gözəl iqlimimiz, 9 iqlim tipi, dəniz turizmi, dağ-xizək turizmi, müalicəvi turizm və s. turistlər üçün ölkəmizi cəlbedici edir.***









Təbii ki, il ərizində, ölkəmizə çoxsaylı xarici qonağın gəlməsində yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması da rol oynayır. Belə ki, 2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycana dünyanın 192 ölkəsindən 2923,8 min və ya 2018-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 11 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Əlbəttə ki, "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxarıb. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə yerləşən "Şahdağ" Turizm Mərkəzinin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" Turizm Mərkəzi il boyu fəaliyyət göstərmək gücündədir. Son illərdə burada xeyli iş görülüb və bu işlər davam etdirilməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 27-də "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə - burada ən hündür nöqtədə tikilən "Shahdag 2351" kafesinin qarşısında yaradılan şəraitlə tanış olub. Burada baxış meydançası yaradılıb, ərazidə ehtiyat helikopter meydançası inşa edilib, hündürlüyü 30 metr olan bayraq dirəyi quraşdırılıb. "Welcome Shahdag" ərazisinin giriş hissəsi abadlaşdırılıb, burada yaşıllıq zolağı salınıb. "Welcome Shahdag" turistlərin mərkəzdə qarşılaşacaqları ilk nöqtədir ki, bu ərazidə 363 yerlik yeni avtomobil dayanacağı inşa edilib. Qonaqların qarşılanması, məlumatlandırılması və istiqamətləndirilməsi üçün "Welcome Plaza" binası da tikilib. 2018-ci ilin martından bu ilin dekabrına qədərki dövrü əhatə edən ikinci faza çərçivəsində "Şahdağ" Turizm Kompleksində ümumi uzunluğu 7,9 kilometr olan 7 eniş zolağı inşa edilib. "Şahdağ" Turizm Mərkəzinin "Main Plaza" adlanan ərazisində 2 zalı olan yeni kinoteatr inşa edilib. Zalların biri 36, digəri 72 yerlikdir. Buraya gələn yerli və xarici turistlərin xizək sürdükdən sonrakı asudə vaxtlarının səmərəli təşkilində, onların müasir kino sənayesinin yeni məhsulları ilə tanış olmasında kinoteatr mühüm rol oynayacaq. Kinoteatrın Yeni il bayramında turistlərin istifadəsinə verilməsi planlaşdırılır. Bu və ya digər işlər görülməklə yanaşı, ərazinin abadlaşdırılması işləri indi də davam edir və 2020-ci ilin yaz aylarında göl ətrafında yeni park zonası istifadəyə veriləcək. "Şahdağ" Turizm Mərkəzində görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı buranın indi dünya səviyyəli xizək kurortu olduğunu bildirib. Prezident İlham Əliyev "Şahdağ" Turizm Mərkəzinin üçüncü mərhələsi üzrə layihə işləri ilə bağlı tapşırıqlarını verib.

Əlbəttə ki, Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan Şahdağ Qış-Yay Turizm Kompleksinə daxil olan "Qaya" və "Zirvə" mehmanxanalarının açılışı turistlərin istirahətinə geniş imkanlar açdı. Azərbaycan tarixində ilk dağ-xizək turizm mərkəzi olan Şahdağ Qış-Yay Turizm Kompleksinin də istifadəyə verilməsi turizmin inkişafında mühüm addımdır. Qədim buzlaqlar, dərin dərələr, heyrətamiz dağ gölləri, bitki və heyvan aləminin ekoloji xəzinəsi buradadır. Yaradılan şərait, bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Azərbaycana və Qusara səfər edə bilərlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkan qışda da turistlər üçün ən gözəl istirahət mərkəzidir. Belə imkanlara malik Azərbaycanda turistlərin səfəri üçün əlverişli məkanın olması ilə yanaşı, tam rahatlığının təmini istiqamətində də böyük işlər həyata keçirilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyasının Siyasət Akademiyası "Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasətidir" mövzusunda növbəti kurs təşkil edib

***Dekabrın 28-də Yeni Azərbaycan Partiyasının Siyasət Akademiyası "Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasətidir" mövzusunda növbəti kurs təşkil edib. Tədbiri giriş sözü açan kursun rəhbəri, Milli Məclisin deputatı Elman Nəsirov bildirib ki, Azərbaycan dünyada muktikultarlizmin məkanı kimi tanınır. Onun sözlərinə görə, Azərbaycan multikulturalizmə böyük önəm verir.***







Daha sonra Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva "Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasətidir" mövzusunda məruzə ilə çıxış edib. Onun sözlərinə görə, Azərbaycanda multikulturalizmin tarixi qədimdir, müxtəlif xalqlar tarixən burada mehriban şəraitdə yaşayıblar. Bu faktlar yaradıcı insanların da əsərlərində öz əksini tapır.

S.Fətəliyeva bildirib ki, Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir: "Bundan başqa, multikulturalizmi dövlət siyasəti kimi qəbul edən digər ölkələrdən fərqli olaraq Azərbaycanda etnik-mədəni müxtəlifliklər multikulturalizm siyasəti vasitəsilə uğurla, səmərəli şəkildə tənzimlənir. Təsadüfi deyil ki, Azərbaycan dünyanın əsas multikulturalizm mərkəzlərindən biri hesab olunur. "Multikulturalizmin Azərbaycan modeli" və ya "Azərbaycan multikulturalizm modeli" kimi terminlər siyasi leksikona, elmi ədəbiyyata daxil edilib.

Azərbaycanda multikulturalizm siyasətinin əsasını Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkədə olan tarixi tolerantlıq ənənələrinin qorunması və inkişafı üçün real şərait yaratdı. Müasir dövrdə Azərbaycan Respublikasının multikulturalizm siyasətinin uğurla həyata keçirilməsi Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyev multikulturalizm siyasətini yeni tarixi şəraitdə inkişaf etdirərək onu ölkənin daxili və xarici siyasətinin mühüm istiqaməti kimi təqdim edib".

Məruzəçi söyləyib ki, multikulturalizmin Azərbaycan Respublikasının dövlət siyasəti olmasının mühüm təzahürlərindən biri burada dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasındadır. Onun fikrincə, Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olması özünü bir sıra əsas məqamlarda göstərir. Bunlar ölkəmizdə dini azadlıqların təmin edilməsi, bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olması, onların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstək göstərilməsi və dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasıdır. "Azərbaycan Respublikası multikulturalizm siyasəti vasitəsilə ölkə daxilində olan etnik-mədəni müxtəliflikləri tənzimləyərək bu müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunmasına nail olub. Bu, demokratik cəmiyyətin norma və prinsiplərinə uyğun gəlir. Belə ki, xalqların etnik-mədəni dəyərlərinin qorunması insan haqlarının tərkib hissəsidir. Ölkəmizin əsas multikulturalizm sahəsində əldə etdiyi nailiyyətləri görmək istəməyən, ona münasibətdə ikili standartlar siyasətini yürüdən bəzi Qərb dövlətləri Azərbaycandan yüzilliklər boyu formalaşmış tolerantlıq, dini dözümlülük və multikulturalizm təcrübəsini əxz etsəydi, pis olmazdı".

S.Fətəliyeva diqqətə çatdırıb ki, Azərbaycanda multikulturalizm üçün əlverişli tarixi və coğrafi şəraitin mövcudluğu, müasir dövrdə onun dövlət siyasəti olması və xalqın həyat tərzinə çevrilməsi onun ölkənin daxili və xarici siyasətinə müsbət təsir göstərməsində büruzə verir. Multikulturalizmin Azərbaycan Respublikasının daxili siyasətinə təsiri özünü cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasında özünü büruzə verirsə, onun ölkəmizin xarici siyasətinə təsiri özünü etnik-mədəni mənsubiyyətlərindən asılı olmayaraq bütün ölkələrlə ölkəmizin hərtərəfli əlaqələrinin inkişafında göstərir. Bu isə öz növbəsində dünya miqyasında mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafı üçün münbit zəmin yaradır. Daha sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

## Diqqət: Mənzil satılarkən vergi güzəşti tətbiq ediləcək

Mənzil mülkiyyətçiləri 5 il müddətində yaşayış sahəsində qeydiyyatda olduqları halda mənzillərini satarkən vergidən azad idilərsə, bu müddət 3 təqvim ilinə endirilib. Vergilər Nazirliyindən bildirilib ki, Vergi Məcəlləsində ediləcək bu dəyişikliklər sosial xarakterli güzəşt olmaqla, əhalinin maliyyə-vergi yükünün azaldılması məqsədini daşıyır. Digər tərəfdən, yaşayış sahəsində qeydiyyat müddətindən asılı olmayaraq istənilən fiziki şəxs mülkiyyətində olan mənzili satarkən hər zaman 30 kvadratmetrə görə vergi güzəşti əldə edəcək. Məsələn, 70 kvadratmetrlik evini satan vətəndaş üçün 30 kvadratmetr çıxılmaqla qalan 40 kvadratmetrə görə vergi hesablanacaq.



Bununla yanaşı, hər kvadratmetrə görə 15 manat baza vergi məbləği müəyyən edilib ki, bu da zona əmsallarına vurularaq hesablanır. Nəticədə, vətəndaşlar hər mənzil satışı zamanı 450 manat baza vergi məbləği qədər güzəşt əldə etmiş olurlar.

## ƏDV-nin dövlət büdcəsinə ödənilməsi qaydası dəyişib

Əvvəlki illərdə əlavə dəyər vergisinin (ƏDV) hesablanıb dövlət büdcəsinə ödənilməsində malların satışına görə 30 günlük müddət nəzərə alınırdısa, artıq bu metod dəyişib. Vergilər Nazirliyinin Media və Kommunikasiya İdarəsindən AZƏRTAC-a bildirilib ki, Vergilər Məcəlləsində ediləcək dəyişikliyə əsasən, bundan sonra tam kassa metodu prinsipinə keçiləcək. Belə ki, 2020-ci il yanvarın 1-dən ƏDV ödəyiciləri məhsulları satarkən, xidmət göstərərkən malları təqdim etdiyi ayda deyil, pul vəsaiti onun sərəncamına daxil olduğu ayda ƏDV-ni hesablayıb ödəyəcək. Bu, sahibkara maliyyə yükü yaratmamağa hesablanmış dəyişiklikdir.




## "Azərkosmos" cari ildə 26 ölkəyə 40,6 milyon dollarlıq xidmət ixrac edib

Yanvar-noyabr aylarında "Azərkosmos" ASC tərəfindən 26 ölkəyə 40,6 milyon ABŞ dollarlıq xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunub. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın dekabr sayında məlumat verilir. Məlumata görə, ASC-nin xidmət ixracından qazandığı gəlir onun ümumi gəlirlərinin 89 faizini təşkil edib. Noyabrda isə "Azərkosmos" ASC 19 ölkəyə 3,1 milyon ABŞ dollarlıq xidmət ixrac edib. "Azərkosmos" ASC-nin 11 ayda xidmət ixracı həyata keçirdiyi əsas ölkələr Fransa, ABŞ, Malayziya, Birləşmiş Krallıq, Birləşmiş Ərəb Əmirlikləridir.




## Somalidə güclü partlayış - 94 ölü

Somalinin paytaxtı Moqadişoda güclü partlayış törədilib. Trend-in məlumatına görə, hadisə nəticəsində 94 nəfər həlak olub. Hadisə minalanmış avtomobilin partladılması nəticəsində baş verib. Həlak olanlardan 73 nəfəri dinc sakin, 17 nəfəri polis əməkdaşı, daha 4 nəfəri isə əcnəbi vətəndaş olub. Hadisə ilə bağlı məsuliyyəti üzərinə götürən təşkilat olmayıb.



# Azərbaycan milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemı ilə var olub və olacaq!

## *Prezident İlham Əliyev: "Biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin"*

***Hər bir millətin tarix boyunca inkişaf etmiş, zaman-zaman azacıq dəyişmiş milli dəyərləri var və hər bir xalqı millət kimi formalaşdıran da bu dəyərləridir. Bəzən fərdlərə görə dəyişən milli dəyər anlayışı çox zaman ümumi rahatlıq və vətən naminə birlik nümayiş etdirməkdir. Çünki bir milləti var edən və daima ayaqda saxlayan milli-mənəvi dəyərləridir. Bu baxımdan, xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan milli-mənəvi dəyərlərimiz Azərbaycanın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür. Bir faktoru da unutmaq olmaz ki, Ulu Öndər Heydər Əliyev bu əhəmiyyətli məqama daim üstünlük verərək, milli-mənəvi dəyərlərimizin və azərbaycançılıq ideologiyasının bizim hər birimiz üçün qiymətli və müqəddəs amil olduğunu vurğulayıb. Xalqımız əsrlər boyu qoruduğu adətləri, ənənələri, dini, tolerantlıq və multikultural baxışımızı bu günədək gətirib çıxara bilib, bu milli özünüdərkin formalaşmasına böyük kömək edib.***



### Ulu Öndər Heydər Əliyev: "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir"

Bu gün Avropaya inteqrasiya fonunda əsrlərdən gələn dəyərlərimizin itirilməsinə yol vermək olmaz. Belə ki, məhz azərbaycançılıq ideologiyasının əsasını təşkil edən mənəvi dəyərlərimiz bizi xalq kimi, dövlət kimi yaşadır, bundan sonra da yaşadacaq. Bu baxımdan, daha bir mühüm məqamı da xatırlatmaq olar ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın - azərbaycançılığın təşəkkül və inkişafına müstəsna yer ayırdı. Ümummilli Liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Ümummilli Lider, əsasən, 3 tərkib hissəni xüsusi qeyd edirdi: dil, din, adət-ənənə. O deyirdi ki, azərbaycançılığımızı, milli ideologiyamızı, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirməliyik. Qeyd etmək vacibdir ki, qloballaşan dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi məqamlarda Heydər Əliyev qətiyyətli bir lider kimi mövqeyini ortaya qoyurdu. Onun milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatı problemə təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir. Onun ideyalarını indi Prezident İlham Əliyev layiqincə davam etdirir, milli dəyərlərimizə və mənəvi sərvətimizə sahib çıxır.

### Prezident İlham Əliyev: "Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var"

Bu gün dövlətimiz milli dəyərlərimizin təminatçısına çevrilib, Prezident İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə və gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. Dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli dəyərlərini qoruması önə çəkilir. "Gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərməğan edilməlidir" prinsipi əsas götürülür. Bu baxımdan, Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin yaradılmasının 100-cü ildönümündəki çıxışı, gənclərə verdiyi tövsiyələri mühümlük təşkil edir. "Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var" deyə qeyd edən ölkə başçımız vurğulayıb ki, bunu biz qorumalıyıq və gənclər də bunu eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər.

### "İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal"- "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə"

SİTAT: "İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal" - "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda, adam dəhşətə gəlir. Sonra da, bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə, dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop islam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik".

Prezident İlham Əliyevin bu xitabından, həm də belə bir nəticə hasil etmək lazımdır ki, məhz dövlət başçısının konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti, məhz milli mədəniyyət və dövlətçilikdir. Dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Bu istiqamətdə atılan hər bir addım qədim zamanlardan bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

### Qərbin bizə doğma gələn milli dəyəri yoxdur

Müasirlik milli kökü, adət-ənənəni itirmək demək deyil, adət-ənənə, milli-mənəvi kökümüz elə müasirlik ənənələrinin fonunda da var ola bilir. Avropanın soyuq və xalqımıza layiq olmayan "dəyərlərini" cəmiyyətimizə sırımağa çalışanlar da, artıq bunu anlamağa məhkumdurlar. Əbəs deyil ki, avropalı sosioloqlar, elm adamları indi təşviş içindədir, çünki onların cəmiyyətlərinin mənəviyyatında böyük problemlər yaşanır. Onlar bu aşınmanı aradan qaldırmaq üçün Qədim Şərq mədəniyyətini öyrənməyə başlayıblar. Cəmiyyətimizdə bir qisim gənc müasirləşmək adı altında Avropa cəmiyyətinin davranışını və geyimini örnək götürür. Amma sirr deyil ki, Qərbin bizə doğma gələn milli dəyəri yoxdur, həmin qismə cazibədar gələn oradakı müasirlik adı altında boy göstərən mənəviyyat problemidir.

Beləliklə, biz bir daha əmin oluruq ki, müstəqilliyin və dövlətçiliyimizin əsas üstünlüyü mənəvi məsələlərə diqqət ayırmaqdır. Dil, din, əxlaq, mental dəyərlər, dövlətçilik sistemi, xalqın özünəməxsus cəmiyyətdaxili münasibət sistemi, ailə institutu, ağsaqqalıq və ağbirçəklik institutu və s. bizim milli-mənəvi sərvətimizdir. Ona görə də, Prezident İlham Əliyevin möhtəşəm çıxışından, bir daha nəticə çıxarmalıyıq ki, Azərbaycan, məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub və olacaq!

*Rövşən NURƏDDİNOĞLU*

# DİN və Baş Prokurorluq Oqtay Gülalıyev ilə bağlı birgə məlumat yayıb



***Məlumat verildiyi kimi, oktyabrın 29-da paytaxtın Nəsimi rayonunun 28 May və Puşkin küçələrinin kəsişməsində baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində piyada, Bakı şəhər sakini Oqtay Gülalıyevin avtomobillə vurulması faktı üzrə başlanmış cinayət işi üzrə Nəsimi Rayon Polis İdarəsinin İstintaq şöbəsində istintaq tədbirləri davam etdirilir.***

Aparılmış istintaq-əməliyyat tədbirləri nəticəsində əldə edilmiş sübutlarla oktyabrın 29-da çağrı nömrəsi "9933" olan "A Taksi" şirkətində taksi sürücüsü kimi işləyən Kənan Abdullayevin idarə etdiyi "Hyundai Accent" markalı avtomobillə saat 17:22-də Nəsimi rayonunun 28 May və Puşkin küçələrinin kəsişməsində sola dönərkən Puşkin küçəsindəki piyada keçidi ilə yolu keçən O.Gülalıyevi ehtiyatsızlıqdan vuraraq onun ağır dərəcəli bədən xəsarəti almasına səbəb olması müəyyən edildiyindən K.Abdullayev Cinayət Məcəlləsinin 263.1-1-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib və barəsində "başqa yerə getməmək haqqında iltizam" qətimkan tədbiri seçilib.

Hər iki qurumun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, "Təhlükəsiz Şəhər" Xidmətinin müşahidə kameraları tərəfindən qeydə alınmış görüntülər Daxili İşlər Nazirliyinin mətbuat xidməti tərəfindən hadisədən dərhal sonra kütləvi informasiya vasitələrinə təqdim edilməsinə, hadisə barədə oktyabrın 30-da Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən, daha sonra hadisənin təfərrüatları və istintaqın gəldiyi ilkin nəticələrə əsasən hadisənin qəsdən törədilməməsi barədə oktyabrın 31-də Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətləri tərəfindən ictimaiyyətə ətraflı məlumatlar verilməsinə baxmayaraq, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkə istifadəçiləri tərəfindən qərəzli olaraq hadisənin guya qəsdən törədilməsi ilə bağlı cəmiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən əsassız məlumatlar yayılıb.

Həmin məlumatlar aparılmış istintaqla sübuta yetirilmədiyindən qəti şəkildə təkzib olunur.

İstintaq zamanı müəyyən edilib ki, O.Gülalıyev hadisə yerindən tamamilə kənarda Xətai rayonu ərazisində yaşayır. O, həmin gün hadisə yerinə şəxsiyyəti istintaqa məlum olan tanışı ilə görüşmək məqsədilə gəlib, bu marşrutdan gündəlik və ya daimi olaraq istifadə etməyib. Həmçinin müəyyən edilib ki, sürücü K.Abdullayev sentyabrdan etibarən Nizami küçəsində fəaliyyət göstərən hazırlıq kursundan qonşusunun övladını saat 17:30-da götürmək üçün həmin istiqamətdə hər gün hərəkət edib.

Bundan başqa, hadisədən əvvəl təxminən 2 saat ərzində sürücü K.Abdullayevin və O.Gülalıyevin hərəkət trayektoriyaları, hadisədən sonra sürücü K.Abdullayevin O.Gülalıyevi 1 saylı Kliniki Tibbi Mərkəzə apardığı marşrut "Təhlükəsiz Şəhər" Xidmətinin kameraları, eləcə də istifadə etdikləri telefon nömrələrinin anten dairələri vasitəsilə tam müəyyən edilib. Məlumatlardan görünür ki, onlar hadisədən əvvəl müxtəlif istiqamətlərdə hərəkətdə olmuş, hərəkət istiqamətləri hadisədən əvvəl heç bir halda kəsişməmiş, sürücü tərəfindən O.Gülalıyevin güdülməsi, izlənilməsi halları müəyyən edilməyib.

Bakı Nəqliyyat Agentliyindən verilmiş məlumata əsasən həmin vaxt yaranan tıxaclar nəzərə alınmaqla sürücü K.Abdullayev zərərçəkmiş şəxsi ən optimal marşrut üzrə saat 18:16-da 1 saylı Klinik Tibbi Mərkəzə çatdırıb.

İstintaq zamanı sürücü K.Abdullayevin şəxsiyyəti, əlaqələri, ailə vəziyyəti və barəsində digər zəruri məlumatlar əməliyyat yolu ilə toplanılıb. Müəyyən edilib ki, o, 1984-cü ildə Mingəçevir şəhərində anadan olub, 2009-cu ildə işləmək məqsədilə Bakı şəhərinə gəlib. K.Abdullayev 2019-cu ilin iyunundan etibarən Bakıda taksi fəaliyyəti ilə məşğul olmağa başlayıb. Ailəlidir, bir övladı var. Əvvəllər məhkum olunmayıb.

Aidiyyəti dövlət qurumları tərəfindən aparılmış əməliyyat tədbirləri nəticəsində K.Abdullayevin həyat tərzi ilə bağlı hər hansı şübhəli məqamların, zərərçəkmiş şəxs O.Gülalıyevlə əvvəllər tanışlığının, ədavətinin olmaması müəyyən edilib, eləcə də sonuncunun hadisədən əvvəl izlənilməsi, təqib edilməsi və təzyiqlərə məruz qalması barədə yayılmış informasiyalar, xüsusilə O.Gülalıyevin olduğu yerin hər hansı kənar şəxs vasitəsilə telefon və ya internet vasitəsilə sürücü K.Abdullayevə bildirilməsi fərziyyəsi istintaqla təsdiq olunmayıb.

Bu və digər hallar üzrə, o cümlədən zərərçəkmiş şəxsə göstərilmiş tibbi yardımın qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması hissəsində istintaq tədbirləri davam etdirilir.

Cinayət işi üzrə tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla təqsirkar şəxsin məhkəmə məsuliyyətinə verilməsi təmin ediləcək.

## Zaur Əliyev: İcbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir

"İcbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığorta səhiyyənin maliyyələşməsinin yeni formasıdır və sistemin tətbiqi səhiyyə sisteminin maliyyə potensialını gücləndirəcək. İcbari tibbi sığortanın tətbiqi nəticəsində tibb müəssisələrinin idarəedilməsi təkmilləşəcək, əhalinin tibbi xidmətlərə əlçatanlığı artacaq, səhiyyə müəssisələri, eləcə də tibb işçiləri arasında sağlam rəqabət mühiti yaranacaq". Bu fikirləri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev deyib.

Z.Əliyev bildirib ki, ölkə üzrə icbari tibbi sığortanın tətbiqi məqsədilə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyinə verilən tibb müəssisələrində informasiya-kommunikasiya texnologiyaları (İKT) infrastrukturu qurulur. Bu fəaliyyət tibb müəssisələrində İKT-nin imkanlarından istifadə etməklə, icbari tibbi sığortanın məlumat bazasının, habelə müvafiq proqram təminatının yaradılması və geniş tətbiqi məqsədini daşıyır.

Proqram təminatı vətəndaşın elektron qaydada qeydiyyatının aparılmasına, pasiyentin müraciət etdiyi şöbələr, ona xidmət göstərən həkimlər, təyin olunan müayinə və müalicə (ambulator, diaqnostik və stasionar) haqqında məlumatların sistemə daxil edilməsinə imkan yaradacaq. Həmçinin vətəndaşların diaqnozları və laborator analizlərinin nəticələri haqqında məlumatları rahatlıqla əldə etmələrinə xidmət edəcək.

"Xəstəxanalara müraciət edən vətəndaşların elektron qaydada qeydiyyatının aparılması zamanı şəxsiyyət vəsiqəsinin qeydiyyatçıya təqdim olunması mütləqdir. Bunun üçün hər bir vətəndaşdan tibb müəssisəsinə gəldikdə şəxsiyyət vəsiqəsinin gətirilməsi xahiş olunur. Eyni zamanda, hər bir vətəndaş bilməlidir ki, səhhətində yaranan problemlə əlaqədar (təcili və təxirəsalınmaz tibbi yardım istisna olmaqla) ilk növbədə şəxsiyyət vəsiqəsi ilə birgə öz ailə həkiminə (ilkin səhiyyə müəssisəsi/Ailə Sağlamlıq Mərkəzi) müraciət etməlidir. Ailə həkimi uşaqların və böyüklərin xəstəliklərinin profilaktikası, diaqnozu və müalicəsi ilə məşğul olan həkimdir. O vətəndaşı müayinə/müalicə etdikdən sonra xəstəliyi ilə bağlı ixtisas həkimi tərəfindən müalicəyə ehtiyac gördükdə ixtisas həkiminə göndəriş verir. Bundan sonra ailə həkiminin göndərişi əsasında vətəndaş tibb müəssisəsinə (ixtisas həkiminə) müraciət edə bilər"-deyə, Z.Əliyev vurğulayıb.

## Tahir Mirkişili: "Vergilər Məcəlləsinə edilən yeni dəyişikliklərin mühüm hədəfləri var"

***"2019-cu ildə Vergilər Məcəlləsinə edilən dəyişikliklər öz müsbət nəticəsini verdi. Bu dəyişiklikləri sahibkarlar öz fəaliyyətləri ilə dəstəklədilər, ölkədə kölgə iqtisadiyyatının həcmi azaldı, büdcə gəlirləri artdı və əhalinin sosial müdafiəsi daha da gücləndi". Bu fikirləri Milli Məclisin deputatı Tahir Mirkişili deyib.***



T.Mirkişili bildirib ki, 1 yanvar 2020-ci ildən qüvvəyə minəcək Vergilər Məcəlləsinə yeni dəyişikliklərin bir neçə mühüm hədəfi var. Bu hədəflər və yeniliklər əsasən aşağıdakılardır: "Birincisi, ədalətli rəqabətin şərti olan bərabər və şəffaf fiskal mühitin təmin edilməsidir. Bura yalan əqd bağlayaraq əmtəəsiz əməliyyatlar aparan vergi ödəyicilərinə qarşı mübarizənin aparılması, riskli vergi ödəyicilərinə nəzarətin gücləndirilməsi, Vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirilməsi kimi yeniliklər daxildir. İkincisi, sahibkarların inzibatçılıq yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsidir. Bura elektron vergi hesab-fakturasının və elektron qaimə-fakturanın vahid sənədlə, yeni elektron qaimə-faktura ilə əvəz edilməsi kimi yeniliklər daxildir. Üçüncüsü, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılmasıdır. Burda əsasən quş əti satışının ƏDV-dən azadolma müddətinin daha 4 il müddətinə uzadılması, habelə heyvan ətinin satışının 4 il ərzində ƏDV-dən azad edilməsi kimi yeniliklər əksini tapır. Dördüncüsü, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılmasıdır. Bura isə əsasən Sənaye və Texnologiyalar Parklarının rezidentlərinə verilən vergi güzəştlərinin müddətinin 7 ildən 10 ilədək artırılması, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələrin ƏDV-dən azad edilməsi, vergi ödəyicisi tərəfindən quraşdırılan yeni nəsil nəzarət kassa-aparatına çəkilən xərclərin müəyyən olunmuş hədd daxilində onun vergi öhdəlikləri ilə əvəzləşdirilməsi kimi yeniliklər daxildir".

Millət vəkili həmçinin qeyd edib ki, vergitutma bazasının genişləndirilməsi də əsas hədəflər sırasındadır. Bura bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergitutuma metodunun ləğv edilməsi və həmin şəxslərin vahid vergi rejimində fəaliyyət göstərməsinin təmin edilməsi (ƏDV və mənfəət (gəlir) vergisi metodu), bəzi aksizli malların aksiz dərəcələrinin artırılması, digər malların aksiz dərəcələrinin isə optimallaşdırılması kimi yeniliklər daxildir.

"Göründüyü kimi yeni dəyişikliklər şəffaf və qanuni şəkildə fəaliyyət göstərən sahibkarların daha çox dəstəklənməsi və onlar üçün əlverişli vergi mühitinin yaranmasına səbəb olacaq. Eyni zamanda qeyri-qanuni, kölgə iqtisadiyyatında fəaliyyət göstərən sahibkarlarla mübarizəni isə daha da sərtləşdirəcək"-deyə, deputat qeyd edib.

# XXI əsrin milli lideri: İlham Əliyev və Azərbaycan dövlətçiliyinin inkişafı




***Prezident İlham Əliyev artıq on altı ildir ki, müstəqil Azərbaycan Respublikasına rəhbərlik edir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla inkişaf etdirən dövlət başçısının fəaliyyəti çoxşaxəlidir. Aparılan təhlillər göstərir ki, Azərbaycan Cənubi Qafqazda müstəqil dövlət kimi özünü uğurla təsdiq edən ölkədir. Bunun kökündə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu konsepsiyası dayanır. İlham Əliyev XXI əsrin keşməkeşləri şəraitində həmin inkişaf kursunu yeni şərtlər daxilində səmərəli şəkildə davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan hazırda Cənubi Qafqazın lider dövlətidir. Ekspertlərin qiymətləndirmələrinə görə, bu proses daha da inkişaf edəcək. Azərbaycan rəhbəri malik olduğu liderlik xüsusiyyətlərinə görə daim uğur gətirən addımlar atacaq. Daxili və xarici siyasətdə həyata keçirdiyi proqramlar sayəsində müstəqil dövlətçiliyi yeni zirvələrə qovuşduracaq. Bunların fonunda isə İlham Əliyevin simasında yeni siyasi lider modelinin formalaşdığı aydın görünür. İlham Əliyev hazırda XXI əsrin milli liderliyinin uğurlu nümunəsidir. Həmin kontekstdə Azərbaycan Prezidentinin fəaliyyətinin bir sıra mühüm saydığımız məqamları üzərində geniş dayanmağa ehtiyac duyduq.***

## Siyasət və vətənpərvərlik: Azərbaycanda sintezi

İndiki tarixi mərhələdə hər bir siyasi liderin fəaliyyətini bütün dünya izləyə bilir. İnformasiya-kommunikasiya vasitələri elə inkişaf edib ki, dövlətə başçılıq edən şəxsin gördüyü işlər sürətlə hər yerə yayılır. Bu, bir tərəfdən, liderlərin göz önündə olmasını təmin edir. Digər tərəfdən, hər bir siyasətçinin fəaliyyətinə dünya miqyasında qiymət vermək işini asanlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti haqqında dünyanın aparıcı dövlətlərinin rəhbərləri dəfələrlə fikir bildiriblər. Onların hamısı Azərbaycan Prezidentindən müdrik, uzaqgörən, əməkdaşlığa açıq və etibarlı, dövlət işlərini dərindən bilən və yüksək diplomatik bacarığa sahib lider kimi bəhs ediblər.

Əlbəttə, hər bir azərbaycanlı üçün ölkənin başçısına digər ölkələrin rəhbərlərinin yüksək qiymət verməsi qürur mənbəyidir. Həm də bu hörmətin arxasında İlham Əliyevin gərgin zəhmətinin, yüksək ailə, siyasətçi tərbiyəsinin, Vətənə böyük sevgisinin dayandığını anlamaq gərəkdir. Belə qiymətlər heç zaman asan verilmir - onu qazanmaq lazımdır, konkret əməldə layiq olduğunu göstərmək gərəkdir. Müqayisə üçün deyək ki, Cənubi Qafqazda digər heç bir siyasi lider barəsində bu cür fikirləri bildirmirlər. Bunlar İlham Əliyevin siyasətçi, lider və şəxsiyyət kimi dərindən öyrənilməsi ehtiyacının yüksək olduğunu göstərir.

Burada bir vacib məqamı vurğulamaq gərəkdir. Ulu öndər Heydər Əliyevin İlham Əliyev kimi liderin yetişməsində zəhməti və xidməti olduqca böyükdür. Ümummilli liderin fəaliyyətinə yaxından bələd olması ilə bərabər, onun təcrübəsini də tam əxz edib, praktiki fəaliyyətdə tətbiq etmək, əlbəttə, insanın özündən yüksək bacarıq tələb edir. Bununla yanaşı, Heydər Əliyevin yeni siyasi lider yetişdirmək qabiliyyətinin çox yüksək səviyyədə olduğunu qəbul etmək gərəkdir. Bütün bunlara görədir ki, Heydər Əliyev məktəbini keçmiş bir Prezidentin, siyasi liderin və şəxsiyyətin müstəqil dövlət quruculuğunda əldə etdiyi nailiyyətlər təsadüf sayıla bilməz. İlham Əliyev uğurlu siyasi varisliyin ən gözəl nümunəsidir!

Alimlər bir məqama diqqət çəkirlər: İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi on altı il müstəqillik dövrünün yarıdan çoxunu təşkil edir. Bu müddətdə Azərbaycan müstəqillik və suverenlik yolunda böyük məsafə qət edib. Konkret deyilsə, on altı il mürəkkəb bir geosiyasi məkanda yerləşən dövlət üçün daim uğurlar ili olub. Buna nail olmağın nə qədər çətin olduğunu sübut etməyə ehtiyac yoxdur. Adi müqayisələrdə həmin reallığı açıqca görmək mümkündür. Burada başqa bir məqam önəm kəsb edir.

Hazırkı tarixi şəraitdə davamlı uğur qazanmağa imkan verən liderlik hansı keyfiyyətlərə malik olmalıdır? Yəni, İlham Əliyevi lider-şəxsiyyət kimi necə xarakterizə etmək olar? Bu suala indi filosoflar, tarixçilər, sosioloqlar, siyasətşünaslar və başqa humanitar ixtisas sahibləri cavab axtarırlar. Əlbəttə, bu istiqamətdə araşdırmaları davam etmək zəruridir.

Son on altı ili dövlət quruculuğu prosesi kontekstində üç aspektdə əhəmiyyətli hesab etmək olar. Birincisi, bu illər keçid proseslərinin yekunu baxımından əhəmiyyət daşıyır. İkincisi, keyfiyyətcə yeni inkişaf mərhələsinə start verilib. Üçüncüsü, cəmiyyətin bütün sferaları bir-biri ilə həmahəng şəkildə hərəkətə gətirilib və sürətli, davamlı inkişaf xətti müəyyənləşdirilib. Vurğulanan faktorların hər birinin dövlət quruculuğunda konkret yeri və rolu vardır. Onlar bir-birini mərhələ kimi ideal şəkildə tamamlayır. Bu şərt bütövlükdə dövlət quruculuğunun sistemli və müntəzəm olaraq həyata keçirməyə imkanlar yaradır. Onun müəllifi isə Prezident İlham Əliyevdir.

## Keçid mərhələsinin yekunu: yeni inkişaf dövrünün təməli

Müstəqillik mərhələsinin keçid proseslərinin yekunu son dərəcə ciddi əhəmiyyəti olan məsələdir. Çünki bu, faktiki olaraq, 1993-cü ildən etibarən aparılan dövlət quruculuğu prosesinin səmərəsini və tarixi əhəmiyyətini ifadə edir. Həmin mərhələdə Ulu öndər öncə daxili sabitliyə nail oldu. Buna paralel olaraq Azərbaycanın beynəlxalq ələqələrini dövrün tələbləri səviyyəsində qurdu. Neft siyasəti bu bağlılıqda prinsipial rol oy-

# XXI əsrin milli lideri: İlham Əliyev və Azərbaycan dövlətçiliyinin inkişafı

nadı. Paralel şəkildə həyata keçirilən sosial-iqtisadi islahatlar cəmiyyətin bir sistem olaraq dayanıqlı sabitlik mərhələsinə keçməsinə imkan yaratdı.

Bununla Ulu öndər sonrakı mərhələdə keçid prosesini uğurla başa vurmağın təməllərini sağlam əsasda formalaşdıra bildi. 2003-cü ildən başlayaraq bu proses daha böyük sürətlə aparıldı. Və 2009-cu il noyabrın 2-də Bakı Dövlət Universitetinin 90 illik yubileyində Prezident İlham Əliyev bəyan etdi: "Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq". Ekspertlər hesab edirlər ki, bu, bütövlükdə müasir dövlətçilik tarixində çox əhəmiyyətli bir mərhələnin başa çatması deməkdir. Keçid dövrünün yekunu kimi üç prinsipial məqamı vurğulamaq zəruridir.

Birincisi, Azərbaycan iqtisadiyyatında keçid dövrünün sön mərhələsi bənzərsiz özünəməxsusluğu ilə fərqlənən qeyri-sabit mərhələyə təsadüf edirdi. Həmin dövrdə bütün dünyanı iqtisadi-maliyyə böhranı bürümüşdü. Konkret desək, uzun illərin gərgin əməyi və düzgün strateji seçim əsasında Azərbaycan iqtisadiyyatını davamlı inkişaf relsinə salmaq mümkün olmuşdu və o, kənar təsirlərə deyil, daxili potensial imkanlarına görə inkişaf edən sistem halına gəlmişdi.

İkincisi, Prezidentin bəyanatı bütövlükdə cəmiyyətdə sosial, iqtisadi, siyasi, mənəvi-mədəni və digər münasibətlər sferasında prinsipial olaraq keçid mərhələsinin sona yetdiyini də ifadə edirdi. Bu, Azərbaycanda dövlət quruculuğunun bütün sahələrinin bir-biri ilə sıx əlaqədə aparıldığının göstəricisi idi. Sosial-iqtisadi sferada isə çox ciddi nailiyyətlər əldə edilmişdi. Belə ki, 1995-2003-cü illərdə Ümumi Daxili Məhsul (ÜDM) 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə artmışdı. Ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi isə 25,2 faiz artmışdı. Kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi, o cümlədən ixrac 4 dəfə çoxalmışdı. İqtisadiyyatda çalışanların orta aylıq real əmək haqqı təxminən 5,6 dəfə artmışdı. Bu müddətdə inflyasiya səviyyəsi 2-3 faizə endirilmişdi. Bütün bunlar uğurlu seçilən inkişaf kursu nəticəsində keçid mərhələsində sıçrayışlı sosial-iqtisadi inkişafa qədəm qoyulmasını təmin etdi. 2003-cü ildən sonra da uğurla aparılan siyasət nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanıldı, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sahələrinin, regionların inkişafı sürətləndi. Bunun fonunda strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin edildi, milli valyutanın sabitliyi və sahibkarlığa dövlət dəstəyi gücləndirildi. 2004-2008-ci illərdə isə Ümumi Daxili Məhsulun həcmi 2,6 dəfə artırıldı. Bu, 1990-cı ilin səviyyəsindən 2 dəfə çox deməkdir. Bu dövrdə yoxsulluq səviyyəsi 13 faizə endi, ölkədə 760 mindən çox yeni iş yeri açıldı.

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan "Doing Business 2009" hesabatında Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində ən islahatçı ölkə elan edildi. 2010-cu ildə də ölkəmiz öz mövqelərini qoruyub saxladı. "Qlobal Rəqabətlilik Hesabatı"nda isə göstərildi ki, 2009-2010-cu illərdə Azərbaycan 18 pillə irəliləyərək, 133 ölkə arasında 51-ci yerə çıxdı. Bu, MDB ölkələri arasında 1-ci göstərici idi. Yuxarıda ifadə edilənlər açıq təsdiq edir ki, Azərbaycanda keçid dövrünün yekunu ciddi sosial-iqtisadi inkişafla xarakterizə olunur. Həmin mərhələdə ölkəmiz bütün istiqamətlərdə keyfiyyətcə yeni təkamül mərhələsinə uğurlu tranzit imkanı qazanmış oldu.

Üçüncüsü, yuxarıda vurğulananlardan məntiqi olaraq belə bir qənaətə gəlmək olur ki, keçid dövrünün başa çatması özlüyündə yeni bir mərhələnin əsasının hazırlanması demək idi. Yəni, Azərbaycan rəhbərliyi düşünülmüş, elmi əsaslandırılmış və məqsədləri dəqiq müəyyən edilmiş inkişaf kursu işləyib hazırlamaqla növbəti inkişaf mərhələsinin təməlini qoyub. Bu, dövlət quruculuğunda çox mühüm bir məqamdır. Çünki o, davamlı və dayanıqlı inkişafın əsas şərtlərindən biridir. Bununla aydın olur ki, Azərbaycan sadəcə bir mərhələni arxada qoymayıb, eyni zamanda, yeni mərhələnin sağlam tərzdə getməsi üçün lazım olan bütün təməl şərtləri də hazırlayıb.

Beləliklə, Azərbaycanda keçid dövrünün ən böyük yekunu ölkənin yeni sürətli inkişaf mərhələsinə qədəm qoyması ilə xarakterizə olunur. 2010-cu ildən başlayaraq Azərbaycan modernləşmə sahəsində daha sistemli və keyfiyyətli dəyişmələr mərhələsinə keçib. Prezident İlham Əliyevin siyasi liderliyi, qətiyyəti, uzaqgörənliyi və mükəmməl idarəetmə bacarığı yeni mərhələnin də Azərbaycan üçün son dərəcə uğurlu olmasını təmin edir. Bu bağlılıqda ABŞ-ın nüfuzlu Con Hopkins Universiteti nəzdindəki Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunun rəhbəri, professor Frederik Starrın Azərbaycan Prezidenti barədə ifadə etdiyi fikirlər çox maraqlıdır. Amerikalı professor vurğulayıb: "Prezident İlham Əliyevin ən güclü cəhətlərindən biri odur ki, onun üçün daim diqqət mərkəzində olmaq əhəmiyyətli deyildir. O, bacarıqlı, tarazlı, düşünülməmiş qərarlara yol verməyən, rəyi ilə razılaşmadığı insanlara ehtiramla yanaşan bir şəxsiyyətdir. Mən onun Azərbaycandakı müxalifət nümayəndələri barədə hörmətlə danışdığını dəfələrlə eşitmişəm. O, şəxsi hissləri siyasətdən ayıra bilən adamdır. Bunların hamısı çox məsuliyyətli insana xas olan xüsusiyyətlərdir. Məncə, o, indiyə qədər ölkəsinə çox gözəl xidmət edib".

Amerikalı alimin bu fikirləri İlham Əliyevin konkret fəaliyyətinin nəticələri əsasında formalaşıb. Prezidentin bir şəxsiyyət kimi tutduğu mövqe də göz qabağındadır. Baxın, 2003-2018-ci illər ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. O cümlədən qeyri-neft sektoru 2,8 dəfə çoxalıb. Sənaye istehsalı isə 2,6 dəfə artıb. Kənd təsərrüfatı 1,7 dəfə böyüyüb. Qeyri-neft məhsulları sahəsində ixracat 4,1 dəfə çoxalıb. Azərbaycanın valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 2018-ci ildə 46 milyard dollara çatdırılıb, hazırda isə 50 milyard dolları keçir. Təkcə bu ilin ilk 6 ayı ərzində 6,4 milyard dollar sərmayə qoymaq planlaşdırılmışdı ki, artıq bu, yerinə yetirilib. Bütövlükdə isə son on altı il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq sərmayə qoyulub. Təsadüfi deyil ki, Davos İqtisadi Forumunun hesablamalarına görə, "hökumətin dəyişikliklərə çevik reaksiyası" göstəricisinə görə Azərbaycan dünyanın 140 ölkəsinin arasında 5-ci yerdə qərarlaşıb.

## Liderlik keyfiyyəti: İlham Əliyev nümunəsi

Bütün dünya liderləri etiraf edirlər ki, İlham Əliyev mükəmməl və səmərəli enerji siyasəti yeridən Prezidentdir. Bu baxımdan 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin (uzunluğu 980 kilometrdir) istifadəyə verilməsi mühüm tarixi hadisə kimi qəbul edilir. Bundan əlavə, 2014-cü il sentyabrın 20-də Cənub Qaz Dəhlizinin təməlinin qoyulması növbəti strateji xarakterli uğur sayılır. Bu, layihənin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın böyük rol oynadığının faktiki təsdiqidir.

Bölgədə ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizinin uzunluğu 3500 kilometr, ümumi dəyəri isə 40 milyard dollardır. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilib. Nəhayət, bu ilin payızında Türkiyədə TANAP-ın Avropa ilə birləşəcək hissəsinin açılış mərasimi keçirilib.

Onu da xatırladaq ki, 2017-ci il sentyabrın 14-də "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddətinin 2050-ci ilə qədər uzadılması ilə bağlı sənədlər imzalanıb. Yeni şərtlərə görə, SOCAR-ın payı 11 faizdən 25 faizə qaldırılmalı və mənfəət neftinin 75 faizi Azərbaycana verilməlidir. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir. Bunların fonunda Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizlərinin Cənubi Qafqazda geosiyasi qovşağı olması ekspertlər tərəfindən yüksək qiymətləndirilir. Bütövlükdə isə Azərbaycan "Bir kəmər, bir yol" layihəsi çərçivəsində aktiv bir iştirakçıdır. Bütün bunlar birbaşa İlham Əliyevin xidmətləri ilə bağlıdır.

Əlbəttə, İlham Əliyevin xarici siyasət kursunun uğurları müstəqil dövlətçiliyimizin inkişafı aspektində böyük əhəmiyyət kəsb edir. Hələ 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdi. Ölkəmiz 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına da üzvdür. İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq üçün var gücü ilə fəaliyyət göstərir. Bu istiqamətdə dövlət başçısının əldə etdiyi uğurlar hamıya məlumdur. Həmin kontekstdə ölkə rəhbərinin sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoqa verdiyi töhfələr çox qiymətlidir. İlham Əliyev bu sferada bir çox təşəbbüslər irəli sürüb və onlar uğurla həyata keçirilir. Məsələn, "Bakı Prosesi" və Bakı Beynəlxalq Humanitar Forumu buna nümunədir. Regional əməkdaşlığın yeni formatları da həmin bağlılıqda olduqca yüksək qiymətə layiq nəticələr verməkdədir. Bununla bağlı Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ifadə etdiyi fikirlər olduqca maraqlıdır. Dövlət başçısı həmin iclasdakı nitqində ifadə edib: "Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət, hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu, bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir. Azərbaycan müstəqil dövlət kimi dünya miqyasında nüfuzunu daim artırmaqdadır".

Vurğulanan məqamlar onu deməyə əsas verir ki, İlham Əliyev müstəqil Azərbaycan tarixində yeni bir eradır. Bu eranın başlıca xüsusiyyəti məxsusi inkişaf mərhələsi olmasındadır. Eyni zamanda, bu mərhələ müstəqil dövlətçiliyin özünütəsdiq dövrüdür. Dövlətçiliyin özünütəsdiqi tarixi əhəmiyyətli hadisədir. Təcrübə göstərir ki, heç də bütün ölkələr bu mərhələni uğurla keçə bilmirlər. Onlar bir sıra hallarda, ümumiyyətlə, müstəqil dövlətçiliyin özünütəsdiqinə nail ola bilmirlər.

Azərbaycanda isə bu mərhələ uğurla keçilib. Bütün dünya Azərbaycanı müstəqil, suveren, özünün inkişaf kursu olan ölkə olaraq qəbul edir. Cənubi Qafqazda ancaq Azərbaycan həmin istiqamətdə sistemli fəaliyyət göstərir. Burada siyasi liderlərin və ekspertlərin vurğuladığı bir özəlliyi də xatırlamağa dəyər. Onlar qeyd edirlər ki, Azərbaycan nəinki regional təhlükəsizliyin təmintaçılarından biri, həm də yeni təhlükəsizlik modelləri təşəbbüsünü göstərən aktiv regional geosiyasi oyunçudur. Bu, İlham Əliyevin həyata keçirdiyi siyasi kursdan məntiqi olaraq alınan nəticədir.

İlham Əliyevin xarici siyasi kursunda təhlükəsizlik modelinin əsasında regional əməkdaşlıq fəlsəfəsi dayanır. Regional əməkdaşlıq qarşılıqlı fayda gətirən, bərabərhüquqlu və bir-birinin daxili işlərinə qarışmadan həyata keçirilən proqramların sintezidir. Bu üsulla regionda yerləşən dövlətlər ancaq qarşılıqlı fayda verən və kimsənin haqqını pozmayan münasibətlər çərçivəsində fəaliyyət göstərir. Bununla da regional təhlükəsizlik səmərəli əməkdaşlıq prinsipləri üzərində bərqərar olan proses kimi özünü təsdiq edir.

İlham Əliyevin bu siyasi xətti özünü tam doğruldur. Regionun ən böyük dövlətləri səmərəli əməkdaşlıq edə bilir. Onların maraqlarının balanslaşmasında isə Azərbaycan ciddi rol oynayır. Bunlara görədir ki, Azərbaycan Prezidentinə regionun bütün böyük dövlətlərinin başçıları xüsusi hörmət və rəğbətlə yanaşırlar.

Bunlar, eyni zamanda, İlham Əliyevin XXI əsrin xarizmatik milli lideri olduğunu göstərən özəlliklərdir. Əlbəttə, bunun daha dərindən və konkret yanaşma əsasında araşdırılması gərəkdir. Çünki XXI əsrdə milli lider obrazı özlüyündə zəngin çalarlara malikdir. İlham Əliyev Cənubi Qafqazın mürəkkəb geosiyasi özəlliklərinə və Azərbaycanın keçdiyi xüsusi dövlətçilik tarixi yoluna görə son dərəcə maraqlı keyfiyyətlərə sahib liderdir. Şübhə yoxdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin liderlik və şəxsi keyfiyyətlərini geniş və dərindən təhlil edən araşdırmalar aparılacaqdır. Azərbaycan xalqının öz rəhbərinə inamı sonsuzdur!

***Kamal Adıgözəlov,***
***Newtimes.az***

# 2020-ci il Dağlıq Qarabağ münaqişəsinin həlli ili ola bilər

***Son vaxtlar Rusiyanın tanınmış politoloqları, siyasi şərhçiləri 2020-ci ilin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mühüm razılıq əldə ediləcəyi və qısa müddətdə, 7 rayonun boşaldılacağını bildirirlər. Söhbət etdiyimiz müsahiblərimiz münaqişənin sülh yolu ilə həllində Ermənistanın konstruktiv mövqe sergiləyəcəyinə inamsız yanaşdıqlarını bildirdilər və bu vəziyyətin, bir qədər də davam edəcəyi təqdirdə, Azərbaycan Ordusunun işğalçını cəzalandıracağını söylədilər.***

### Politoloq Elşad Mirbəşiroğlu: "Azərbaycan diplomatik həmlələrlə öz hədəflərinə doğru getməkdədir"



- 2019-cu ildə, təəssüflər olsun ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində hər hansı bir nəticə əldə olunmadı. Eyni zamanda, 2019-cu ildən 2020-ci il üçün münaqişənin tənzimlənməsi istiqamətində hansısa müsbət addımların atılması üçün, əsas verəcək addımlar da atılmadı. Bugünkü reallığımız, qeyd etməyə əsas verir ki, 2020-ci ildə də münaqişənin tənzimlənməsi istiqamətində irəliyə doğru hər hansı bir addımın atılması üçün elementlər formalaşmayıb. 2019-cu ildə münaqişənin tənzimlənməsi məsələsində qeyri-müəyyənlik daha da güclənib. Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum qətnamələr, beynəlxalq hüquq normaları əsasında həllinin tərəfdarıdır və bununla bağlı öz mövqeyini açıq şəkildə ortaya qoyub. Amma Ermənistan tərəfi münaqişənin dinc vasitələrlə tənzimlənməsi ehtimallarını sıfıra bərabərləşdirən mövqe nümayiş etdirir. Bir sözlə, Ermənistan tərəfi bütün cəhdlərlə status-kvo vəziyyətini saxlamağa çalışır və bu da, münaqişənin dinc vasitələrlə tənzimlənməsinə daban-dabana ziddir. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupu münaqişə vəziyyəti ilə bağlı 2019-cu ildə də obyektiv mövqe sergiləmədi. Yəni münaqişə ilə bağlı obyektiv mövqe, ondan ibarət ola bilərdi ki, ATƏT-in Minsk Qrupu Ermənistanı açıq şəkildə işğalçı dövlət adlandırsın. Təəssüf ki, biz 2019-cu ildə bunu görmədik. Bu baxımdan da, 2020-ci ilə ümidlə baxmağımız üçün əsaslara malik deyilik. Yəni münaqişə vəziyyəti ilə bağlı obyektiv mövqe sergilənmədiyi halda, xüsusilə də, bunu vasitəçilik missiyasını həyata keçirən instansiya etmədiyi halda, gələcəkdə münaqişənin dinc yolla tənzimlənməsi ilə bağlı ümidlər böyük olmayacaqdır. Bu baxımdan, bugünkü reallıqdan çıxış edərək, bir daha qeyd etmək istəyirəm ki, münaqişə vəziyyəti ilə bağlı hazırkı reallıqlar 2020-ci ildə də münaqişənin dinc yolla tənzimlənməsi potensialının çox da böyük olmayacağını göstərir. Azərbaycan, bütün mənalarda, özünün potensialını artırıbdır, Azərbaycanın həm siyasi, həm iqtisadi, həm də hərbi potensialı kifayət qədər böyükdür və Azərbaycan diplomatik həmlələrlə öz hədəflərinə doğru getməkdədir. Amma kifayət qədər mürəkkəb olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün və mütləq münaqişənin tənzimlənməsi prosesində iştirak edən tərəflərin də iradəsi vacibdir. Bu iradə də, ondan ibarət olacaq ki, Ermənistana qarşı təzyiqlər həyata keçirilsin, adı işğalçı dövlət kimi səsləndirilsin və yalnız bundan sonra münaqişənin dinc yolla tənzimlənməsi istiqamətində müəyyən addımlar atmaq mümkün olacaqdır.

### Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: "ATƏT-in Minsk Qrupunun üzvü olan dövlətlər öz sözlərini deməlidirlər"



- Rusiyanın tanınmış siyasi şərhçilərinin 7 rayonun boşaldılacağı ilə bağlı fikirlərinə hörmətlə yanaşırıq. Sual olunur, Ermənistanda münaqişənin dinc yolla həlli məsələsində siyasi iradə varmı? Bax, bu, bir az düşündürücüdür. Yəni biz dəfələrlə bu cür bəyanatlar eşitmişik. Amma bunun üçün Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında sorumlu olan dövlətlər, konkret olaraq, ATƏT-in Minsk Qrupunun üzvü olan dövlətlər öz sözlərini deməlidirlər. Onlar bu məsələdə işğalçının da, işğala məruz qalan tərəfin də kim olduğunun fərqindədirlər və bunu çox gözəl bilirlər. Ümid edirik ki, 2020-ci ildə ATƏT-in Minsk Qrupu ölkələri Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində daha çox iradə nümayiş etdirəcək və münaqişənin həllinə öz töhfələrini vermiş olsunlar.

### Politoloq Qabil Hüseynli: "Münaqişə yenilənmiş Madrid prinsipləri əsasında həllini tapmalıdır"



- Rusiyanın tanınmış politoloqlarının və siyasi şərhçilərinin 2020-cü ildə işğal altında olan 7 rayonun boşaldılacağını söyləmələri, "avazı çox yaxşı gəlir, oxuduqları quran olsa" məsəlini xatırladır. Bu gün nə Rusiyanın siyasi elitasının gündəmində, xüsusilə də, Ermənistanın gündəmində 5 rayonun boşaldılması məsələsi yoxdur. Düzdür, Rusiya buna təkid edir. Amma rəsmi Moskvanın təkidi səylərinə baxmayaraq, Ermənistan konstruktiv mövqe nümayiş etdirmir. Bu da, Azərbaycanı sərt tədbirlər görməyə təhrik edir. Bu baxımdan, demək olar ki, Azərbaycan Ordusu gec-tez ərazi bütövlüyünü təmin edəcəkdir. Yəni ermənilərin ağlı başlarına gəlsə, bu məsələləri dinc yolla həll etməyə razı olarlar. Rusiyalı politoloqlar və Rusiyadan olan ziyalılar, əlbəttə, xeyirxah niyyətlə çıxış etmək istəyir, amma bu, hələ Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi deyil. Münaqişə yenilənmiş Madrid prinsipləri əsasında həllini tapmalıdır. Yenilənmiş Madrid prinsipləri az çox beynəlxalq hüququn normalarına uyğun gəlir. Azərbaycan SSRİ İttifaqından hansı sərhədlərlə çıxıb həmin sərhədlərlə BMT-yə daxil olubsa, həmin sərhədlər içində də bərpa edilməli və Azərbaycanın sərəncamına qaytarılmalıdır. Bax, buna görə də, nə qədər müxtəlif rəylər olsa da, bu gün Azərbaycan çalışdığı hədəf ölkəmizin ərazi bütövlüyü məsələsidir və ondan bir addım olsa da geriyə çəkilmək olmaz.

***GÜLYANƏ***



## BSU-nun Elmi Şurasının geniş tərkibdə iclası keçirilib

***Dünən Bakı Slavyan Universitetinin Elmi Şurasının geniş tərkibdə iclası keçirilib. İclası giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva iştirakçıları 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.***

Sonra Nurlana Əliyeva BSU-nun professoru Ellada Quliyevaya Təhsil Nazirliyi tərəfindən verilən fəxri fərmanı, baş müəllim Xuraman Ələsgərovaya "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanını, BSU-nun müəllimi Səftər Məlikova Gənclər və İdman Nazirliyi tərəfindən verilən "Azərbaycan Respublikasının Əməkdar məşqçisi" fəxri adının vəsiqəsini, Təcrübə və məzunların karyera inkişafı şöbəsinin müdiri, dosent Yaşar Alxasova Rus Dili və Ədəbiyyatı Müəllimlərinin Beynəlxalq Assosiasiyası tərəfindən verilən A.S.Puşkin adına medalı təqdim edib, onlara daha böyük uğurlar arzulayıb.

N.Əliyeva BSU-nun İctimai Etimad Şurasının sədri, təhsil eksperti, professor Şahlar Əsgərova il ərzində universitetdə keçirilən tədbirlərdə maraqlı və əhatəli çıxışlarına və mühazirələrinə görə "Bakı Slavyan Universitetinin dostu" nominasiyasının qalibi diplomunu təqdim edib.

İclasda Qafqazın təhsil sahəsində ən böyük "Facebook" səhifəsi olan "Azərbaycan Universitetləri"nin rəhbəri Zöhrab Süleyman rektor Nurlana Əliyevaya "2019-cu ilin ən yaxşı rektoru" sosial tələbə sorğusunda 3-cü yeri qazanması münasibətilə plaket təqdim edib.

Elmi Şuranın iclasında, həmçinin, 2019-cu ilin yekunlarına görə, müxtəlif nominasiyalar üzrə BSU-nun əməkdaşlarının və ayrı-ayrı strukturların mükafatlandırılması keçirilib. Mükafata layiq görülən əməkdaşlar göstərilən diqqətə görə, BSU-nun rəhbərliyinə təşəkkür ediblər.

Sonra professor N.Əliyeva dekabr ayında universitetdə keçirilən respublika və beynəlxalq əhəmiyyətli tədbirlər barədə geniş çıxış edib, qarşıda duran əsas vəzifələri diqqətə çatdırıb. Rektor qeyd edib ki, əsas vəzifə təhsilin keyfiyyətinin yüksəldilməsi, 2019-2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının şəffaf və obyektiv keçirilməsini təmin etməkdir. Rektor, eləcə də, Elmi Şuranın iclasında BSU-nun bir qrup əməkdaşına 2019-cu ildə universitetin tədris, elmi və ictimai həyatında göstərdikləri səmərəli fəaliyyətə görə təşəkkürnamə təqdim edib.

Daha sonra iclasın gündəliyinə daxil olan məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

Sonda N.Əliyeva Elmi Şuranın üzvlərinə daha əzmlə, daha məsuliyyətlə fəaliyyət göstərmələri üçün öz tapşırıq və tövsiyələrini verib.

***ZÜMRÜD BAYRAMOVA***

## Müsavat və "ADR" arasında nə baş verir?

### *Partiyanın başqan müavini Osman Kazımov Qubad İbadoğlunun onu təhqir etməsi iddiasını irəli sürüb*



Müsavat partiyasından deputatlığa namizədliyi irəli sürülmüş başqan müavini Osman Kazımovla "Azərbaycan Demokratiya və Rifah" Hərəkatının sədri Qubad İbadoğlu arasında qarşıdurma yaranıb. Belə ki, birinci iddia edib ki, "ADR" sədri sosial şəbəkələrdə onu təhqir edtirir, eləcə də, həmin təhqirlər "Facebook"da "Füzulililər" səhifəsində ictimailəşdirilir. Müxalifətçilərin bu istiqamətdəki qarşıdurmaları bu gün də davam edir və məsələnin məhkəməyə qədər gedəcəyi də bildirilməkdədir.

"Qubad İbadoğlunun tərəfdarlarının "Füzulililər" səhifəsində mənim ünvanıma təhqiramiz ifadələr işlətməsi yaxşı hal deyil" deyən Müsavat partiyasının başqan müavini, əlavə edib ki, 2005-ci il parlament seçkiləri zamanı, o, 84-cü dairədən "Azadlıq" siyasi blokunun ilk müəyyən olunmuş namizədi idi. Məhz bu və digər müəyyən səbəblərə görə də, Q.İbadoğlunun xeyrinə namizədliyini verməyib. SİTAT: "Baxmayaraq ki, Q.İbadoğlunun Füzuli ilə elə bir bağlılığı yox idi. Onun qələbə çalması üçün ciddi dəstək verdim".

Həmin dövrlərdə mətbuat vasitəsi ilə füzulililərə müraciət etdiyini də xatırladan müsavatçı funksioner təhqirlərə qarşı susacağını bildirib: "Nə mən, nə də məni müdafiə edənlər təhqirlərə cavab verməyəcəyik".

Qeyd edək ki, sosial şəbəkədəki söz atışmaları bu gün də davam edir.

***Rövşən RƏSULOV***

# 2019-cu il Azərbaycan mədəniyyəti üçün uğurlu oldu

## Cəmiyyətin inkişafına güclü stimul verən mədəniyyətin tərəqqisinə dövlətimizin himayəsi genişmiqyaslı layihələrdə əksini tapdı

***Mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Müasir həyatımızda mədəniyyət və incəsənətin müxtəlif sahələrini əhatə edən növləri, ayrı-ayrılıqda, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən diqqətdə saxlanılır və onun inkişafına yüksək səviyyədə şərait yaradılır. Artıq yola salacağımız 2019-cu ilin astanasındayıq. Bir neçə gündən sonra 2020-ci ili qarşılayacağıq. Yaşadığımız il ölkənin ictimai-siyasi həyatında əlamətdar il kimi, Azərbaycan mədəniyyəti sahəsində uğurlarla yadda qaldı.***



İl ərzində Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq tapşırıq və sərəncamlarına uyğun olaraq, eləcə də, müvafiq dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən layihələr mədəniyyət sahəsinə öz töhfəsini vermiş oldu. Böyük Azərbaycan şairi İ.Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi və 2019-cu ilin ölkəmizdə “Nəsimi İli” elan edilməsi mütəfəkkir şairin yaradıcılığının daha geniş tədqiq və təbliğ olunmasına imkanlar yaratmış oldu. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ikincisi, Nəsimi - Şeir, İncəsənət və Mənəviyyat Festivalı çərçivəsində 30-dək tədbir keçirildi. Cənab Prezidentin 2019-cu ili “Nəsimi İli” elan etməsi həm də mədəniyyət, ədəbiyyat, fəlsəfə, Azərbaycan dilinə xüsusi münasibət baxımından əlamətdar hadisəyə çevrildi. 50 il əvvəl Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə İmadəddin Nəsiminin 600 illik yubileyinin UNESKO səviyyəsində qeyd edilməsi Azərbaycan mədəniyyəti tarixində əhəmiyyətli hadisəyə çevrilmişdi. Bu il isə Prezident İlham Əliyev 50 ildən sonra dahi şairin adını XXI əsrdə yenidən dünyanın diqqət mərkəzinə qaytarmış oldu. İl ərizində təkcə ölkə daxilində deyil, dünya ölkələrində İmadəddin Nəsimi yaradıcılığına həsr olunmuş silsilə tədbirlər keçirildi.

Müasir həyatımızda mədəniyyət və incəsənətin müxtəlif sahələrini əhatə edən növləri ayrı-ayrılıqda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən diqqətdə saxlanılır və onun inkişafına yüksək səviyyədə şərait yaradılır.

Bu gün dövlətin qayğısı ilə əhatə olunan Azərbaycan mədəniyyəti və incəsənəti yeni inkişaf dövrünü yaşayır. Azərbaycan milli mədəniyyətinin inkişafı, dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdən olduğundan, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı və s. diqqətdə oldu. Mədəniyyət və incəsənətin müxtəlif sahələrini əhatə edən növləri Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən diqqətdə saxlanıldı və onun inkişafına yüksək səviyyədə şərait yaradıldı. Cənab Prezidentin Sərəncamı ilə teatr binaları yüksək səviyyədə təmir-bərpa edilib, teatr xadimlərinə xüsusi mükafatlar, fəxri adlar verilir və həyat şəraitləri yüksəldilir. Bu diqqət və qayğının davamı olaraq dövlət başçısının cari ildə “Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında” 11 mart Sərəncamı ilə dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşları 2019-cu il martın 1-dən orta hesabla 50 faiz artırıldı. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin “Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamına əsasən, Azərbaycan teatr ənənələrinin qorunub-saxlanması və dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün dövlət büdcəsindən Mədəniyyət Nazirliyinə 1,8 milyon (bir milyon səkkiz yüz min) manat ayrıldı, eləcə də, teatrlara maliyyə yardımı edildi. Sərəncamda qeyd olunurdu ki, Azərbaycan teatrının fəaliyyəti, həmişə olduğu kimi, bu gün də dövlətimizin diqqət mərkəzindədir. Milli teatrın parlaq bədii irsinin qorunması, teatr sahəsində islahatların aparılması, teatr mədəniyyətinin təbliği və bütövlükdə, Azərbaycan teatr sənətinin inkişafı ilə bağlı silsilə tədbirlər həyata keçirilir.

Milli teatrın parlaq bədii irsinin qorunması, teatr sahəsində islahatların aparılması, teatr mədəniyyətinin təbliği və bütövlükdə, Azərbaycan teatr sənətinin inkişafı ilə bağlı silsilə tədbirlər həyata keçirilir. Cəmiyyətin məlumatlandırılmasına yönəldilən və bununla da, onun demokratikləşməsinə, dünya birliyinə inteqrasiya edilməsinə rəvac verən mədəniyyət ocaqları köklü şəkildə modernləşdirilib və yenidən qurulub. Uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan peşəkar teatrı da sənət yolunun yeni bir mərhələsini yaşayır. Ulu Öndər Heydər Əliyev ənənələrini uğurla davam etdirən Prezident İlham Əliyevin sərəncamları ilə teatr binaları təmir və bərpa edilib, onların dünya teatr səhnəsinə uyğun olaraq, fəaliyyət göstərmələrinə hər cür şərait yaradılıb.

Azərbaycan mədəniyyətinin inkişafı və dünyada təbliği barədə danışarkən, əlbəttə ki, bu il ərizində ölkəmizin nüfuzlu beynəlxalq tədbirlərə, mədəniyyətlə bağlı mötəbər forum və konfranslara ev sahibliyi etdiyini də vurğulamalıyıq. Cari il iyunun 30-dan iyulun 10-dək ölkəmizdə UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirildi. Tədbirin təşkili UNESKO ilə ölkəmiz arasında tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir. Bakı sessiyasında 45 qərar qəbul edildi və 29 irs nümunəsi siyahıya salındı. Şəki şəhərinin tarixi mərkəzi ilə birgə Şəki Xan Sarayının da bu siyahıda yer alması ölkəmizin böyük uğuru oldu. Bu nailiyyətlərin əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın UNESKO-dakı nüfuzunun xüsusi rolu var. Mədəni irsimizin təbliği ilə bağlı görülən işlər çərçivəsində Heydər Əliyev Fondunun xətti ilə keçirilən tədbirlər də əhəmiyyəti baxımından yadda qalandır.

Azərbaycan ədəbiyyat xadimləri ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti tərəfindən görkəmli ədəbiyyat xadimlərinin yubileylərinin qeyd olunması haqqında sərəncamlar sənət tariximizə olan diqqətdir. Bu il də dövlət başçısının sərəncamları ilə Azərbaycanın musiqi mədəniyyətinin, eləcə də, ədəbiyyatının inkişafına mühüm xidmətləri olan bir sıra görkəmli sənətkarların yubileyləri yüksək səviyyədə qeyd olundu. Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyi, Cəfər Cabbarlının 120 illik yubileyi, xalq artisti Əminə Dilbazinin anadan olmasının 100 illik yubileyi və s. dövlət başçısının sərəncamları ilə qeyd olundu. Heydər Əliyev Fondunun dəstəyi ilə ənənəvi təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı, eləcə də, Bakı Beynəlxalq Caz Festivalı, “Zima-2019” Beynəlxalq Uşaq Festivalı və digər layihələr əhəmiyyətlidir. Görülən tədbirlər və həyata keçirilən layihələr müasir Azərbaycan mədəniyyətinin təbliği baxımından, diqqətəlayiqdir.

*Zümrüd BAYRAMOVA*

## Bayramla əlaqədar qoruqların iş günləri açıqlandı

Dövlət Turizm Agentliyi (DTA) 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə qoruqların iş günlərini açıqlayıb. Agentlikdən Trend-ə verilən məlumata görə, 31 dekabr 2019-cu il və 1 yanvar 2020-ci il tarixlərinin qeyri-iş günü hesab olunması ilə əlaqədar DTA-nın tabeliyində olan qoruqlar 2 yanvardan etibarən ziyarətçi qəbul edəcək. Bunlar “Yanar dağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, “Atəşgah məbədi” Dövlət Tarix-Memarlıq, “Basqal” Dövlət Tarix-Mədəniyyət, “Xınalıq” Dövlət Tarix-Memarlıq və Etnoqrafiya, “Lahıc” Dövlət Tarix-Mədəniyyət, “Yuxarı Baş” Dövlət Tarix-Memarlıq və “Kiş” Tarix-Memarlıq qoruqlarıdır.

## Bu il Azərbaycan Təhsil Şəbəkəsinə 1000-dən çox ümumi təhsil müəssisəsi qoşulub

Bu il Azərbaycan Təhsil Şəbəkəsinə (ATŞ) 1000-dən çox ümumi təhsil müəssisəsi qoşulub. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, ölkənin müxtəlif pillələri üzrə təhsil müəssisələrini, eləcə də təhsil sahəsində dövlət siyasətini həyata keçirən qurumları vahid şəbəkədə birləşdirən ATŞ hazırda 3 min 900-a yaxın təhsil müəssisəsini əhatə edir. Ölkə üzrə şagirdlərin 94 faizi, müəllimlərin isə 90 faizi internetlə təmin olunub.

## İstanbul-Bakı aviareysi ilə gələn Azərbaycan vətəndaşı saxlanıldı




Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda zərgərlik məmulatlarının Azərbaycan Respublikasının gömrük sərhədindən bəyan etmədən keçirmə cəhdinin qarşısını alıblar. Dövlət Gömrük Komitəsindən Trend-ə verilən məlumata görə, İstanbul-Bakı aviareysi ilə gələn Azərbaycan Respublikası vətəndaşı “Yaşıl Kanal” buraxılış sistemi vasitəsilə gömrük nəzarət zonasını tərk etmək istəyərkən gömrükçülər tərəfindən saxlanılıb və “Qırmızı Kanal”a yönləndirilib.

Vətəndaşa məxsus əşyalar rentgen aparatından keçən zaman monitorda şübhəli əşyaların təsviri görünüb. Yoxlama zamanı xanım vətəndaşa məxsus çantanın içərisindən və üzərindən əvvəlcədən gömrük nəzarətinə təqdim etmədiyi, şifahi, elektron və yazılı şəkildə bəyan etmədiyi, ümumi çəkisi 87 qram olan zərgərik məmulatları - 5 cüt sırğa, 5 ədəd qolbaq, 1 ədəd sırğa-üzük-kulonlu boyunbağı, 3 ədəd qızıl boyunbağı, 2 ədəd üzük, 3 ədəd kulon aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Sığortalanmaya maraq və nəzarət

***2020-ci ilin yanvar ayından qeyri-yaşayış obyektlərinin icbari sığortasına nəzarət tədbirlərinin gücləndiriləcəyi gözlənilir və bunun, əslində, ən çox diqqət mərkəzində olan məsələ olaraq hər an nəzarətdə saxlanılması tam məntiqidir. Sözügedən müqavilələr bağlanmadığı təqdirdə, müqavilə bağlamayan daşınmaz əmlakların sahiblərinə qarşı müvafiq cərimələr tətbiq ediləcək ki, bunun da istər qanunvericilik, istərsə də hər hansı bir şəkildə əsaslı olduğu təkzibedilməzdir.***

Dünyada baş verən təbii fəlakətləri nəzərə aldıqda görürük ki, daşınmaz əmlakın sığortalanması məsələsinin aktuallığı günü-gündən artır. Təbii fəlakətlər zamanı vətəndaşlara dəyən zərərin ödənilməsi məsələsi ortaya çıxanda hər kəs bunun fərqində olur və bu zaman sığortalanmanın mahiyyəti haqqında düşünülür. Əslində isə qabaqcadan tədbirlər görmək və hər hansı bir hadisədən, hətta təbii fəlakətdən, fövqəladə hadisədən də sığortalanmaq olar.

Bəzən yanlış olaraq elə düşünülür ki, dövlət ziyanı tam qarşılamalı və zərərçəkənin zərəri 100 faiz qarşılanmalıdır. Əslində isə bu, belə deyil və mövcud qaydaya görə təbii fəlakətin baş verdiyi təqdirdə dövlətin göstərdiyi maddi yardım çəkilmiş maddi ziyanın 20 faizinə qədər olmalıdır. Nümunə üçün qeyd edək ki, məsələn, Kür və Araz çaylarında 2010-cu ilin yazında sellərin əmələ gətirdiyi daşqınların nəticələrini aradan qaldırmaq üçün dövlət büdcəsindən 460 milyon manat, Qax-Zaqatala bölgəsində 2012-ci ilin may ayında baş vermiş güclü zəlzələnin nəticələrini aradan qaldırmaq üçün isə 420 milyon manat vəsait ayrılsa da, həmin vəsait hesabına zərərçəkən vətəndaşlara təzminatlar ödənilsə də, bu məbləğlər çəkilmiş maddi ziyanı tam ödəməyib və əlbəttə ki, zərərin 20 faiz ödənilməsi qaydalarına görə, burada qeyri-adi heç nə yoxdur. Sadəcə, hər kəs bunun fərqində olmalı və bu faktlar özü-özlüyündə sığortalanmanın üstünlüklərini və zəruriliyini bir daha ortaya qoyur.



Ölkəmizdə icbari sığortanın hələ 2011-ci ildən qüvvəyə minməsinə baxmayaraq, təbii fəlakətlərin və qəzaların yetirdiyi maddi ziyana görə hələ də dövlət təzminat ödəyir. "Diqlas" ticarət mərkəzinin timsalında bunun şühidi olduq. Şahidi olduq ki, bu ticarət mərkəzində çalışan sahibkarların əmlakı sığortalanmamışdı və hətta çəkdikləri maddi ziyan da dövlət tərəfindən ödənildi. Bu ödənişləri dövlət borc kimi yox, kömək kimi, sosial yönümlü tədbir kimi reallaşdırdı və bu, insan amilinin ön planda olması, dövlət başçısının qayğısı, vətəndaşların maddi rifahının düşünülməsi kimi dəyərləndirilməlidir və ictimaiyyət tərəfindən belə də dəyərləndirilir.

Məsələ burasındadır ki, ticarət müəssisələrində əvvəllər da yanğın hadisələri olub, amma "Diqlas"dakı hadisədən sonra daşınmaz əmlakı sığortalamağın vacibliyini, aktuallığını sahibkarlar çox yaxşı başa düşdülər. İstisna halları da təkzib etmək mümkün deyil. Məsələn, bütün bu yanğınlardan sonra, sahibkarların sözügedən ticarət obyektində onlara məxsus olanları sığortalamadıqları üçün zərərlə üz-üzə qaldıqlarının fonunda bəzi sahibkarlar bundan nəticə çıxararaq əmlaklarını, onlara məxsus olanları sığortalamağa dırnaqarsı yanaşdılar. "EuroHome"dakı son faciədən sonra yenə də eyni mənzərənin, eyni vəziyyətin şahidi olduq və sahibkarların sığortalanmadığı üçün dəymiş ziyanın indi ticarət mərkəzinin rəhbərliyi tərəfindən ödəniləcəyi gözlənilir. Çünki, artıq dövlət tərəfindən kompensasiyanın ödənilməsini gözləmək olmaz və bundan sonra kompensasiyalar aztəminatlılar olmaqla, yalnız müstəsna hallarda ödənilə bilər. Bu barədə ölkə başçısı, Cənab Prezident dekabrın 19-da pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirədə də xəbərdarlıq edib. Ölkə başçısı bildirib ki, ticarət obyektlərinin hər biri sığortalanmalıdır ki, sabah bədbəxt hadisə, yanğın baş verəndə gedib sığorta şirkətinə müraciət etsin. Cənab Prezident xüsusilə vurğulayıb ki, hərhansı bədbəxt hadisə baş verdiyində, yanğın olduğunda günahkar sahibkar özü olduğu təqdirdə dövlətdən hərhansı vəsait gözləməsinə dünyanın heç bir yerində rast gəlinməyib. Ölkə başçısı sahibkarlara xatırladıb ki, hərə öz əmlakını, öz mülkünü sığortalayır, bədbəxt hadisə baş verəndə də sığorta şirkəti onun pulunu ödəyir və bizdə də belə olmalıdır.

Həqiqətən də dünya təcrübəsinə nəzər saldıqda görürük ki, sahibkarlar öz mallarını, mülklərini sığortalayır, baş verən hadisələr, təbii fəlakətlər, fövqəladə hallar zamanı da öz zərərlərinin qarşılanacağına əmindirlər. Heç bir ölkədə dövlət zərərin qarşılanması üçün qarant sayılmır və inkişaf etmiş ölkələrin hamısında qəzalar, təbii fəlakətlər nəticəsində yaranan maddi zərər sığorta şirkətləri tərəfindən ödənilir. Əlbəttə, dövlətin bu məsələyə qarışması da mümkündür, lakin dövlət müstəsna hallarda qarışır. Məsələn, Saksoniyada 2002-ci ildə baş verən daşqın zamanı belə bir hala təsadüf edilib. Beləki, zərərçəkənlərin əmlaklarının çoxu sığortalanmış olsa da, sığorta hadisəsi kimi daşqın qeyd olunmadığı səbəbindən həmin əmlakların sahiblərinə dövlət tərəfindən yardım edildi. Yəni, analoji olaraq, əgər sahibkarlar üçün çıxılmaz vəziyyət yaranarsa, sığorta şirkətlərinin hərhansı bir şəkildə müdaxiləsi məhdudlaşarsa o zaman dövlətin müdaxiləsinə ümid etməyə dəyər və bu hal müstəsna xarakter daşıyır. Bir sözlə, sığortalanma kimi bir seçim olduğu halda dövlətin koməyini gözləmək sahibkarların hüququ deyil və sığortalanma müqaviləsinin sahibkardan tələb olunması da, olmadığı təqdirdə cərimələrin tətbiqi də bu baxımdan tam məntiqidir və əslində bütün bunlar sahibkarların öz mənafelərinin müdafiəsi, mallarının, mülklərinin qorunması, təhlükəsizliyi üçündür.

***İnam Hacıyev***

## Bu il Azərbaycanın ixrac etdiyi məhsulların siyahısında pomidor birincidir



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2019-ci ilin dekabr sayı təqdim olunub. Mərkəzdən Trend-ə verilən məlumata görə, icmalın bu sayında göstərilir ki, 2019-cu ilin yanvar-noyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (166,7 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 157,7 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (113,5 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, 2019-cu ilin 11 ayı ərzində meyvə-tərəvəz ixracı 541,9 milyon, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 168,1 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 117,9 milyon, pambıq lifi ixracı 108,8 milyon, kimya sənayesi məhsullarının ixracı 95,5 milyon, elektrik enerjisinin ixracı 76 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 54,8 milyon, pambıq ipliyi ixracı 27,3 milyon, şəkər ixracı 26,4 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 22,6 milyon ABŞ dolları təşkil edib. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-noyabr aylarında alkoqollu və alkoqolsuz içkilərin ixracı 54 faiz, pambıq lifinin ixracı 53 faiz, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 52 faiz, kimya sənayesi məhsullarının ixracı 30 faiz, pambıq ipliyinin ixracı 28 faiz, elektrik enerjisi ixracı 17 faiz, şəkər ixracı 14 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 11 faiz, meyvə-tərəvəzin ixracı 9 faiz artıb.

## Azərbaycan "Global Innovation Index 2019" reytinqində İKT göstəricilərinə görə fərqlənib

Azərbaycanın "Global Innovation Index 2019" reytinqində İKT sahəsində göstəriciləri açıqlanıb. Trend-in məlumatına görə, ölkə "İKT xidmətlərinin ixracı" göstəricisində mövqeyini ötən illə müqayisədə 17 pillə yaxşılaşdırıb. "İKT xidmətlərinin idxalı" göstəricisində isə Azərbaycan bir pillə geriləyərək 42-ci yerdə qərarlaşıb. Həmçinin "İKT-dən istifadə" və "İKT-yə çıxış" göstəricilərində Azərbaycan müvafiq olaraq 82 və 69-cu yerlərdə qərarlaşıb.

Qeyd edək ki, "Global Innovation Index 2019" reytinqi 126 ölkəni əhatə edir və ABŞ-ın Kornell Universiteti, Fransanın INSEAD Biznes Məktəbi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən birgə tərtib olunur. Reytinqin tərtib olunması zamanı 82 göstərici qeydə alınır. Azərbaycan reytinqdə ümumilikdə 84-cü yerdə qərarlaşıb. Azərbaycanın ən yaxşı göstəricisi "Daxili bazarın inkişafı" blokunda "İnvestisiyalar" subindeksi üzrə birinci yerdir.

## "Azəriqaz": Ölkə üzrə əhali sektorunun qazlaşdırma səviyyəsi 96 faizə çatıb

Ölkə üzrə əhali sektorunun qazlaşdırma səviyyəsi 96 faizə çatıb. "Azəriqaz" İstehsalat Birliyindən AZƏRTAC-a bildirilib ki, cari ildə respublikanın regionlarda 61 yaşayış məntəqəsinin və 31 yeni yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulurdu. Qazlaşdırma proqramı 14 min 227 fərdi yaşayış evini əhatə edib. Bakı şəhəri üzrə bu il 1-ci mərhələdə 22 yeni yaşayış massivinin qazlaşdırılması planlaşdırılıb. Proqrama 4607 fərdi yaşayış evi daxildir. Həmin massivlərdən 6-da qazlaşdırma işləri tamamlanaraq təbii qaz verilişi həyata keçirilib. Digər massivlərdə işlər 2020-ci ilin ilk rübündə tamamlanacaq. Beləliklə, ölkə üzrə əhali sektorunun qazlaşdırma səviyyəsi 96 faizə çatıb.

# İqtisadi göstəricilər Paşinyanı dalana diräyib...

## Erməni iqtisadçı-ekspertləri həyəcan təbili çalır




***"Heç vaxt iqtisadi göstərici fəallığını iqtisadi inkişaf kimi göstərmək olmaz". Bu fikirləri Ermənistanın "tert.am" saytına erməni iqtisadçı Vardan Bostancyan baş nazir Nikol Paşinyanın sosial şəbəkədəki iqtisadi fəallığı iqtisadi inkişaf kimi təqdim edən şərhinə münasibətini açıqlayarkən deyib. Onun sözlərinə görə, Paşinyanın 2019-cu ilin noyabrının iqtisadi rekord qazanması iddiası, ümumiyyətlə, doğru düşüncə deyil.***

"Əgər ölkədəki inkişafı göstərmək istəyirsənsə, bu zaman ÜDM və investisiya vəziyyətini bərabərləşdirmək olmaz. Əgər bu iki amil yoxdursa, onda digər məsələlərdə, hətta kosmik göstəricilər də heç nədir" deyə Bostancyan bildirib.

Erməni iqtisadçı hesab edir ki, baş nazir tərəfindən təqdim edilən göstəricilər, nəinki mütəxəssisləri, heç vətəndaşları da qane edə bilməz: "İstənilən halda, vətəndaşlar bir məsələni fiksasiya edə bilərlər: onlar bu gün dünəndən yaxşı yaşayırlar, yoxsa yox".

**Vardan Bostancyan: "Hökumətin bu cür yanaşmaları heç vaxt uğur keyfiyyəti kimi qəbul edilə bilməz"**

"Əgər bu, müşahidə edilmirsə, onda iqtisadi fəallığın indeksini 30% hesabında təsəvvür etmək olar, bununla isə, heç nə dəyişilə bilməz", deyən iqtisadçı-ekspert, onu da bildirib ki, hakimiyyət dəyişikliyindən sonra punktlu göstəricilərin uğur kimi göstərilməsi adi bir hala çevrilib: "Hökumətin bu cür yanaşmaları heç vaxt uğur keyfiyyəti kimi qəbul edilə bilməz".



O, həm də əlavə edib ki, bəzi insanlar hələ də eyforiyaya qalıblar və Paşinyanın belə fikirlərini qəbul edirlər: "Onlar sevinməkdə davam edirlər. Belə elektoratı saxlamaq üçün, məhz bu cür "göstəriciləri" işlətmək lazımdır.

**Qrant Baqdasaryan: "Əlavə tədbirlər planı görməsələr, vəziyyət daha da pisləşə bilər"**

Digər erməni iqtisadçısı Qrant Baqdasaryan da, həmkarı kimi, Ermənistandakı iqtisadiyyatın uğursuzluqları ilə bağlı fikir bildirib. O, qeyd edib ki, 2020-ci və 2021-ci illərdə ölkənin iqtisadi göstəriciləri 2019-cu ilinkindən geri qalmayacaq, yəni heç bir inkişaf müşahidə olunmayacaq. O, bu sözlərini "Siyasi İqtisadiyyat" Araşdırmalar İnstitutunun ilin yekunları ilə bağlı konfransında deyib.



"Hakimiyyətin bəzi iddiaları öz məntiqini göstərmir və bütün bunlar, bir daha sübut edir ki, əgər Paşinyan hökuməti əlavə tədbirlər planı görməsə, vəziyyət daha da pisləşə bilər" deyə Baqdasaryan bildirib.

Beləliklə, fakt budur ki, Ermənistan hakimiyyətinin iddialarına baxmayaraq, ölkə iqtisadiyyatı çöküş dövrünü davam edir və Paşinyanın iddiaları, sadəcə, daxili publikaya hesablanmış dırnaqarası siyasi gedişdir.

**Rövşən RƏSULOV**




## Bakı metrosu dekabrın 31-də saat 01:00-dək xidmət göstərəcək



Bayram günlərində "Bakı Metropoliteni" QSC gücləndirilmiş iş rejimində çalışacaq. QSC-dən AZƏRTAC-a bildirilib ki, şəhərin mərkəzində yerləşən və kütləvi bayram tədbirlərinin keçiriləcəyi stansiyalara əlavə işçi qüvvəsi cəlb olunacaq. Zəruri hallar üçün ehtiyat qatarlar nəzərdə tutulub. Bundan savayı, dekabrın 31-də paytaxtda keçiriləcək kütləvi bayram tədbirləri və atəşfəşanlıqla əlaqədar sərnişinlər üçün metropolitenə giriş saat 01:00-a kimi açıq olacaq.

Həmçinin "Bakı Metropoliteni" QSC bu il də 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə sərnişinlərini xüsusi layihələrlə təbrik edəcək. Sərnişin axınının sıx olduğu "İçərişəhər", "28 May", "Elmlər Akademiyası", "Koroğlu" və "Avtovağzal" stansiyalarının vestibüllərində bəzədilmiş şam ağacları quraşdırılıb. Dekabrın 29-dan yanvarın 1-dək "A" və "Q", eləcə də 2009-cu ilə qədər Bakı metrosunun xətlərində sərnişin daşımış "E" tipli vaqonların qoşulduğu, yeni il rəmzləri ilə bəzədilmiş retro qatar "İçərişəhər" stansiyasının 1-ci yolunda nümayiş etdiriləcək. Yaşlı və orta nəslin nümayəndələrində nostalji hisslər oyadan bu qatara hər kəs tamaşa edə, xatirə şəkli çəkdirə bilər. Bundan başqa, Yeni il bayramının əsas qəhrəmanları olan Şaxta baba və Qar qız bu il də sərnişinlərlə görüşə gələcək.

## Bakı sakinini odlu silahla qətlə yetirən şəxs saxlanılıb



Bakı şəhər sakini Xəyal Cəfərovu qətlə yetirməkdə şübhəli bilinən K.Mahmudov müəyyən edilərək saxlanılıb. Daxili İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, Xətai rayonu ərazisində Bakı şəhər sakini Xəyal Cəfərovun odlu silahdan açılmış atəşlə qətlə yetirilmiş meyitinin tapılması barədə Rayon Polis İdarəsinə məlumat daxil olub. Dərhal rayonun polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni münaqişə zəminində törətməkdə şübhəli bilinən Bakı şəhər sakini K.Mahmudov müəyyən edilərək saxlanılıb. Ondan cinayəti törədərkən istifadə etdiyi kustar üsulla hazırlanmış tapança aşkar edilərək götürülüb.

## Avtomobil qaçıran keçmiş məhkumlar tutulub



Abşeron Rayon Polis İdarəsinə müraciət edən Masazır qəsəbə sakini S.Əsədov dekabrın 24-də saat 7 radələrində "VAZ-2107" markalı avtomobilinin qəsəbə ərazisindən qaçırıldığını bildirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərhal əməliyyat-axtarış tədbirlərinə başlanılıb. Avtomobilin dekabrın 27-də Qobustan rayonu ərazisində hərəkətdə olması Daxili İşlər Nazirliyinin Təhlükəsiz Şəhər Xidmətinin əməkdaşları tərəfindən aşkar edilib.

Görülmüş tədbirlərlə nəqliyyat vasitəsi Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən Qobustan rayonu ərazisində saxlanılıb. Nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən şəxslər - əvvəllər məhkum olunmuş İsmayıllı rayon sakini A.Dəmirov və Göyçay rayon sakini Ə.Zeynalov Abşeron Rayon Polis İdarəsinə təhvil veriliblər. Araşdırmalarla nəqliyyat vasitəsinin dekabrın 24-də Qaradağ rayonu ərazisindən qaçırılmış A.Allahverdiyevə məxsus "VAZ-2107" markalı avtomobil olması, üzərinə S.Sadıqova məxsus nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanlarının taxılması müəyyən edilib. Davam etdirilən tədbirlərlə S.Sadıqova məxsus "VAZ-2107" markalı avtomobil isə Şamaxı şəhəri ərazisində dövlət qeydiyyat nişanları oğurlanmış, habelə yük yerində başqa 2 avtomobilə aid qeydiyyat nişanları olan vəziyyətdə polis əməkdaşları tərəfindən tapılıb. Faktla bağlı araşdırma aparılır.

## Bir yol qəzasında 4 nəfər ölüb

Dekabrın 27-dən 28-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb. Daxili İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 18 cinayətin üstü "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 4 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 34 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarışda olan 19 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 1 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 4 nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 5, qanunsuz saxlanılan silah-sursatla bağlı 2 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 31 nəfər saxlanılıb.

# Müxalifətin dairə savaşı

## *İqbal Ağazadə Rauf Arifoğluya "Kişi ol, yerini bil, Araz Əlizadəyə oxşama" dedi*

***Dünyadakı ən böyük dəyərin, əslində, demokratiya və hüquq olduğunu unutmamaq lazımdır. Təəssüf doğuran odur ki, bu reallığı anlamayan dağıdıcı düşərgənin "liderləri" ancaq demokratiyanı qanunları pozmaqda görürlər. Elə buna görədir ki, ölkədə keçirilən hər bir seçkiərəfəsi min bir oyun çıxarır, piket və mitinq keçirməklə, ölkədə yaranmış siyasi sabitliyi pozmağa çalışırlar. İstəklərinə çatmayanda, başlayırlar bir-birilərini təhqir etməyə.***



Elə bu günlərdə "Ümid" partiyasının sədri İ.Ağazadənin "Yeni Müsavat" qəzetinin baş yazarı R.Arifoğlunun eyni dairədən namizədliyini verməsi, onu "cin atına" mindirib. Səbəb də ötən parlament seçkiləri zamanı 35 saylı Xətai 3-cü seçki dairəsindən ASDP sədri Araz Əlizadə mandat qazanaraq, qalib olması idi. İndi də parlament seçkilərilə bağlı qərar verilən kimi İ.Ağazadə yenidən həmin dairədən millət vəkili olmaq istədiyini bəyan edərkən, bu tərəfdən də gözlənilmədən "Yeni Müsavat" qəzetinin baş redaktoru R.Arifoğlu da həmin dairədən deputat olmaq niyyətini açıqlayıb. Belə olan halda, İ.Ağazadə "daha heç kimə güzəşt və sakit dayanmaq yoxdur!" deyib. Və öz "Facebook" səhifəsində "Əlizadəçilik bitdi, R.Arifoğlu da yerini bil"deyib: "Hüquq Rauf bəyə haqq verir ki, istənilən dairədən namizədliyini irəli sürsün, mübarizə aparsın. Ancaq təəssüf edirəm ki, həm sizlər, həm də Rauf bəyi müdafiə edənlər ifrata vararaq, bir-birinizi kiçiltməyə çalışırsınız. Etməyin... Mən heç vaxt başqa dairədən namizədliyimi verməmişəm. Haqqım tanınanda da, tanınmayanda da bu dairənin seçicilərinə üz tutmuşam. Ənənəmə bu dəfə də sadiq qaldım. Seçici səsi almaq üçün mübarizə aparsınlar. Amma A.Əlizadəyə oxşamasınlar. Uduzanda, kişi kimi etiraf etsinlər, xalqın səsinə haram qatmasınlar, hətta uduzanda, mandatı onlara verən tapılsa belə, imtina etməyə vicdanları olsun".

Partiya sədri sonda bir məsələni də xatırladıb: "Bir gün yenicə əməkdar artist adı alan müğənnilərdən biri mərhum sənətkarımız Habil Əliyevə deyir ki, bəs mənə də "Əməkdar artist" fəxri adı verdilər. Habil müəllim deyir ki, "onlar verdi, verdi, bəs sənin abrına nə gəldi ki, götürdün?" İndi namizəd olanlar bir də bunu düşünsünlər, xalq səs vermirsə, nəyisə götürməyin, daşıya bilməyəcəksiniz..."

Beləliklə, görünür, seçkilərə qədər müxalifətin bu qarşıdurması, hələ çox davam edəcək. Kimin haqlı, kimin haqsız olduğunu isə, zaman göstərəcək.

***R.HÜSEYNOVA***



## Hörmətsiz müxalifətin bədbəxt liderləri...

**RƏFİQƏ**

***Nədənsə, Azərbaycana düşmən kəsilən, bəli, məhz düşmən kəsilən kömür kimi qara qüvvələr ağızlarından düşən hər bir kəlmələrində, hər bir ifadələrində "YAP nə etdi ki, Azərbaycan üçün, xalq üçün?" tipli ağıldan kənar, mənasız suallar yağdırırlar. İndi də parlament seçkiləri ərəfəsi bu dəyərsiz boşboğaz müxalifət liderlərinin tabeçiliyi altında olan mətbuat səhifələri ilə yanaşı, ən çox sosial şəbəkələrdə onların diqtəsi ilə yazarlıq deyil, yozarlıq edən azyaşlı qələmkeş və mirzəcik tayfaları guya dünyanın müxtəlif filosoflarından, ya da ictimai-siyasi xadimlərindən sitatlar gətirərək, öz köşə yazılarının ora-burasını o ki var, bəzəyib-düzəyirlər.***

Nə bilim, dahi rus yazarı filankəsovski belə demişdi, Qədim Çin filosofu fi-lan-kəs də elə ifadə etmişdi... Necə deyərlər, "çevir tatı-vur tatı" prinsipindən o tərəfə keçə bilməyən müxalifət köşədarlarının ağıllarına da gəlmir ki, YAP kimi nəhəng partiya zərurətdən yaranarkən, onların əksəriyyəti o zamankı "Malış" smesi yeyib, üstündən də əmzik əmərək, Allahlarına şükür edirdilər. Yəni ən azından, onların bu barədə hap-gop etmələri yersizdir. Çünki YAP yarananda, onların yaşları bir-ikidən o tərəfə keçmirdi. Ona görə də, yaşları qədər ... yesələr, daha yaxşı olardı. Qaldı ki onların verdikləri sərsəm suala, belə bir cavab(lar) verəcəyəm. YAP Azərbaycan xalqı üçün əsl, həqiqi müstəqillik və azadlıq gətirdi. YAP yeganə partiyalardandır ki, yarandığı dövrdən az müddət sonra, yəni altı ay keçməmiş müxalifət düşərgəsindən iqtidara gəldi. YAP-ın yaranması Azərbaycan xalqının dəstəyi nəticəsində baş verdi. YAP xalqın partiyasıdır. YAP Azərbaycanı AXC-Müsavat kimi xəyanətkar cütlüklərdən, satılmaqdan, parçalanmaqdan, məhv olmaqdan qorudu, hifz etdi. 27 il öncəki İ.Qəmbər, Əli Kərimli elə 27 il sonra da dəyişilməz qalaraq, müxalifətdəki dəyərsiz ömür səhifələrini vərəqləməklə məşğuldurlar. YAP öz gücü və qüdrəti ilə, xalqına güvənib, bu kimi xəyanətkarların hakimiyyətə gələrək yenidən Azərbaycanı didib-parçalamalarına, imkan vermir, verməyəcək də! BAX, BUDUR, YAP, hörmətsiz müxalifət mirzəciklərinin bədbəxt liderləri!!!

Və bir də həyata daha real baxmaq lazımdır... Yoxsa Azərbaycanı gah filan ölkə, gah da behməkan ölkə ilə haqsız müqayisə edərək, binəva liderləri qarşısında beş-üç dollara görə oyunbazlıq etməyə başqa cür ad da vermək mümkün deyil. Müxalifət köşədarları lüğətlərdə axtarıb-tapdıqları əndrəbadi ifadələri yazmaqdansa, dahi filosofların kəlamlarının uncanın tutub, ucuzluqlara qədər getməkdənsə, Müsavat və AXCP kimi xəyanətkar partiyaların fəaliyyətlərini dəstəkləməkdənsə, öz haylarına qalsınlar. Hər kəs bilir ki, boş-boş guruldamaqdan, heç nə çıxmayacaq. Hətta satıldıqları xarici ağaları da, əslində, belə guruldamaqlara fikir vermirlər. Ayrı-ayrılıqda AXCP-ni və Müsavatı "Azərbaycanın xilaskarı", ölkəni guya azadlığa və demokratiyaya qovuşduran alternativsiz qüvvələr adlandıran mirzəciklər boş-boş eyforiyalara qapılmaqdan başqa, heç nə edə bilmirlər. Və müxalifətin işlətdiyi bu kimi ifadələr, illərdir ki, xalqın başbeynini aparıb. Çünki Ə.Kərimli, C.Həsənli, İ.Qəmbər, A.Hacılı, P.Hüseynli və... satqınlar öz yüngüllükləri ilə YAP-ın həqiqi ağırlığına tab gətirə bilməzlər. YAP-a qısqanc nəzərlərlə baxıb, həzmetməzlik nümayiş etdirməkdənsə, məncə, həyata daha real, daha açıq gözlə baxmağı bacarmaq lazımdır. Ancaq baxan gözləriniz kordur.

# Müxalifət Əli Kərimli barədə hər zaman belə düşünüb

## *Yaxud AXCP sədrinə daha bir xatırlatma*

***AXCP-nin sədri zaman-zaman, bütövlükdə, müxalifət düşərgəsinin onunla açıq olmasa da, qapalı razılaşmalara getdiyini iddia edib. Lakin cəbhəçilərin sədrinin, vaxtaşırı anormal təklif və ideyalar irəli sürməsi və fikirlər səsləndirməsi heç vaxt siyasi müxalifət düşərgəsində özünə hörmət qoyan şəxslər tərəfindən qəbul olunmayıb. Elə qarşıdan gələn parlament seçkiləri ərəfəsində də, Ə.Kərimlinin gah boykot, gah da mitinq iddiaları ilə çıxış etməsi həm ictimai rəydə, həm də düşərgədə, sadəcə, gülüş doğurur. Hətta belə demək olar ki, müxalifətin digər cinahları hər zaman AXCP sədri haqqında istehzalı düşünüb.***



### Vaqif Hacıbəyli demişdi ki, Əli Kərimli "kraldan çox kral" olmaq istəyir və belə addımları ilə tərbiyəsizlik göstərir

Misal üçün, hələ iki il əvvəl, referendum ərəfəsində də Ə.Kərimlinin ölkədə ictimai-siyasi sabitliyi pozmaq cəhdlərinə düşərgənin tanınmış fərdləri tərəfindən heç bir dəstək göstərməyib, hətta o araqarışdırmaçılıqda və s. bu kimi məsələlərdə onu ittiham olunub. Özü də onu ittiham edənlərdən biri Müsavat başqanı Arif Hacılının qardaşı, "Əhrar" partiyasının sədri Vaqif Hacıbəyli olmuşdu. Məsələn, Ə.Kərimlinin icazəsiz mitinq keçirmək çağırışlarına sosial şəbəkə vasitəsi ilə cavab yazan V.Hacıbəyli ironik tərzdə yazmışdı ki, AXCP-nin sədri "kraldan çox kral" olmaq istəyir və belə addımları ilə tərbiyəsizlik göstərir.

### "Əhrar" partiyasının sədri: "Əgər müxalifətin "Milli Şura"da təmsil olunan hissəsindən başqa, kimlərsə onun siyasi liderliyini qəbul etsəydi..."

XATIRLATMA: "İndiki halda, Ə.Kərimlinin siyasi mövqeyini başa düşmək və düzgün qiymətləndirmək lazımdır... Bu mənada onun müxalifətin lideri statusu uğrunda apardığı mücadilə çoxsaylı tənqidlərə məruz qalsa da, tamamilə təbiidir. Əgər müxalifətin "Milli Şura"da təmsil olunan hissəsindən başqa, kimlərsə onun siyasi liderliyini qəbul etsəydi, onda Ə.Kərimli "Milli Şura"da təmsil olunmayan qüvvələrlə də əməkdaşlığa maraqlı olacaqdı. İndiki halda isə onun siyasi maraqları tam idarəçiliyində olan "Milli Şura"dan başqa, müxalifətin olmadığını iddia etməyə vadar edir..."

Bəli, "Əhrar"çıların sədrinin, hələ bir neçə il əvvəl, AXCP sədri barədə "indiki halda" tipində işlətdiyi ifadəsi elə hazırda da indiki hala təsadüf edir. Daha doğrusu, Ə.Kərimli iki il əvvəl də, ondan ötəki illərdə də, hazırda da dəyişilməyən, yerində addımlayan, "məndən başqa, müxalifətdə lider yoxdur" kimi ucuz təfəkkürlə, necə deyərlər, ortada atlanıb-düşür. Amma onun sözləri, əlbət ki, həm siyasətdən kənar olan, həm də siyasətdə olan şəxslər tərəfindən məsxərəyə qoyulur. Zaman dəyişsə də, ölkədə ciddi siyasi və s. islahatlar baş versə də, V.Hacıbəyli demişkən, "kraldan çox kral olmaq istəyən adam" islah olunmur ki, olunmur. Nə etmək olar, bunu özü istəyir. Atalar demişkən, özü yıxılan, ağlamaz. Yəqin ki, çox yaxın zamanlarda bizlər AXCP sədrinin "Milli Şura"dakı siyasi tutuquşularının, onun siyasi meyiti üzərində necə ağlaşma qurduqlarının da şahidlərinə çevriləcəyik...

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycanda insan inkişafı konsepsiyası

***Bu gün Azərbaycanın iqtisadiyyatı dinamik inkişafdadır, ictimai həyatda, iqtisadi, siyasi və sosial sahələrdə köklü dəyişikliklər yaşanmaqdadır. Gəlirlər davamlı olaraq artmış, inflyasiya azaldılaraq nəzarət altına alınmış, ticarət balansı ardıcıl müsbət saldoya dəyişmişdir. Ölkədə bank-maliyyə, tikinti, infrastruktur, mədəniyyət, informasiya texnologiyaları və digər sahələrdə nəhəng addımlar atılmışdır. Bu tərəqqinin nəticəsində isə, insanlar gələcəyə artan etimad və təhlükəsizlik hissi ilə baxırlar. Bütün bu dəyişikliklər Azərbaycanda insan inkişafının təzahürləridir. İnsan inkişafı insanların seçimlərinin genişləndirilməsi və insan bacarıqlarının artırılması prosesidir.***

Bu seçim və imkanların genişləndirilməsi isə insanların uzun və sağlam həyat yaşaması, təhsil və bilik əldə etməsi, layiqli həyat səviyyəsinə malik olması və onların həyatına təsir edəcək qərarların qəbulunda və ümumiyyətlə, ictimai həyatda fəal iştirak etməsi deməkdir. İnsanların böyük dəyər verdiyi həyat obrazını yaşamaq imkanları olmasa, bu, yalnız onların həyatının kasadlığı demək deyil, həm də ölkənin həyatından mühüm inkişaf fürsətlərinin yoxa çıxması deməkdir. Ona görə də, insan inkişafı paradiqması, məhz bu sözlərlə başlayır: “Hər bir dövlətin həqiqi sərvəti - onun insanlarıdır.” Bu gün insan inkişafı konsepsiyası ən ətraflı və çoxşaxəli inkişaf modeli sayılır. Konsepsiya hər bir inkişaf problemini, o cümlədən, iqtisadi artım, sosial sərmayələr, insanların səlahiyyətlənməsi, baza ehtiyaclarının və sosial müdafiənin təmin edilməsi, siyasi və mədəni azadlıqlar, ətraf mühitin qorunması, gender bərabərliyi və ictimai həyatın digər aspektlərini əhatə edir. Bu yanaşmanın banisi sayılan mərhum pakistanlı iqtisadçı-alim Məhbub ul Haqın təbirincə desək, insan inkişafı texnokratik və ya fəlsəfi nəsnə deyildir - o, həyatın inikasıdır. Konsepsiyaya görə, iqtisadi artım ümumi inkişaf üçün vacib şərt olsa da, həqiqi tərəqqi üçün kifayət deyil. Artan iqtisadi sərvət heç də, avtomatik olaraq, insanların həyat şəraitin yaxşılaşmasına, cəmiyyətdə bərabərliyin və təhlükəsizliyin təminatına zəmanət vermir. Bunun üçün iqtisadi inkişaf sosial təşəbbüslər və islahatlarla müşayiət olunmalıdır, çünki inkişafın ümdə məqsədi maliyyə resurslarının və iqtisadi sərvətin toplanması deyil, insanların dəyər verdiyi sahələrdə (sağlamlıq, təhsil, təmiz ətraf mühit, münaqişələrsiz ictimai həyat, milli-mədəni varlıq və sair) seçim və imkanların, hüquq və azadlıqların təmin edilməsidir. İqtisadi artım ilə insan tərəqqisi arasındakı əlaqə öz-özünə, avtomatik surətdə olmur, o, məqsədyönlü dövlət siyasəti və iştiraklı qərar qəbulu prosesi tələb edir. İnsan inkişafı BMT çərçivəsində formalaşmış və fəaliyyət yönümlü konsepsiyadır. 1990-cı ildən beynəlxalq gündəmdə olan və əksər dövlətlər tərəfindən qəbul edilərək dəstəklənən insan inkişafı yanaşması Azərbaycandan da yan keçməmişdir. Azərbaycanda insan inkişafının templərinə müəyyən obyektiv və tarixi səbəblər mənfi təsir göstərmişdir. 1988-ci ildən etibarən, Ermənistan Respublikası ilə davam edən münaqişə və 1 milyona yaxın qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi, keçmiş SSRİ məkanında iqtisadi münasibətlərin qırılması və ümumi siyasi-iqtisadi tənəzzül, yeni beynəlxalq tərəfdaşlıqların yaradılması tələbləri, xarici dövlətlər tərəfindən müdaxilələr və nüfuz dairəsi uğrunda geosiyasi oyunlar, müstəqilliyini yenicə qazanmış gənc Azərbaycan dövləti üzərinə ağır iqtisadi, sosial və siyasi təzyiqlər qoymuşdu. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Prezident seçilməsi ilə, daxili siyasi stabilliyin getdikcə təmin edilməsi, 1994-cü ildə atəşkəs haqqında razılığın əldə olunması və daha sonra Azərbaycanın karbohidrogen resursları üzrə müqavilələrin yekunlaşdırılması nəticəsində, ölkənin həyatında çoxdan arzulanan yeni inkişaf mərhələsi başlanmışdır. Artıq qeyd olunduğu kimi, bu müddət ərzində, Azərbaycanda xeyli nailiyyətlərə imza atılmışdır. Azərbaycan qlobal arenada öz mövqeyini və nüfuzunu təmin etmiş, bir çox beynəlxalq sammitlərə və Konvensiyalara qoşulmuş, Dağlıq Qarabağ münaqişəsi ətrafında danışıqlar prosesinə təkan vermişdir. 2000-ci illərin davamlı iqtisadi artım tempi sayəsində, Azərbaycan Dünya Bankı tərəfindən “yuxarı-orta” gəlirli ölkələr kateqoriyasına daxil edilmiş və qlobal maliyyə-iqtisadi böhranın ölkəyə təsiri başqa dövlətlərə nisbətən qat-qat yumşaq olmuşdur. Məqsədyönlü daxili siyasət nəticəsində, ölkədə yoxsulluğun səviyyəsi 2001-ci ildəki 49%-dən 2013-cü ildə 6%-dək enmişdir. Təhsil, səhiyyə, nəqliyyat infrastrukturu, tikinti-inşaat, əhalinin sosial müdafiəsi, təbii sərvətlərin qorunması, alternativ enerji və digər mühüm sahələrdə müxtəlif islahatlar, proqramlar və yenilikçi təşəbbüslər həyata keçirilmişdir. İnsan inkişafı indeksinə əsasən, Azərbaycan artıq bir neçə ildir ki, Küveyt, Rusiya Federasiyası, Malayziya və Türkiyə kimi dövlətlərlə yanaşı, “yüksək insan inkişafı” ölkələri qrupunda yer tutmuşdur. Bununla yanaşı, inkişaf davamlı bir prosesdir və bütün bu nailiyyətlər hələ yolun sonu demək deyil.

İnsan inkişafı konsepsiyası XX əsrin 80-ci illərinin sonunda tam formalaşmışdır. Bu konsepsiyanın əsas müddəası ondan ibarətdir ki, insanlar iqtisadi tərəqqinin yalnız vasitələri deyil, həm də yekun məqsədidir. Başqa sözlə desək, iqtisadi sərvətin yaranması və toplanması prosesində iştirak edən insanlar, son nəticədə, bu sərvətdən həm də bəhrələnə bilməlidirlər. “Hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır. İnkişafın əsas məqsədi əhalinin uzun, sağlam və yaradıcı həyat yaşaması üçün əlverişli mühitin yaradılmasıdır. Bu, özü-özlüyündə aydın olan həqiqət kimi səslənə bilər. Lakin bu həqiqət resursların və maliyyə sərvətinin toplanması kimi qısamüddətli 18 prioritetlərin fonunda asanlıqla yaddan çıxarılır. 1948-ci ildə BMT Baş Assembleyası tərəfindən İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsi müasir dövrdə inkişafın əsas məqsədinin, məhz insan rifahı olmasını təsdiq etdi. Sonrakı illərdə BMT-nin bir sıra forumları və konfransları insan inkişafının müxtəlif aspektlərinə həsr olundu və insanlara yönəlmiş inkişaf prinsipi dönə-dönə vurğulandı. İnsan inkişafı haqqında müasir təsəvvürlərin formalaşmasında Məhbub ul Haqın və Amartya Senin ən böyük rolu olmuşdur. “İnsan inkişafı haqqında düşüncələr” kitabının müəllifi kimi bu mövzunu hərtərəfli araşdırmış pakistanlı iqtisadçı-alim Məhbub ul Haq həm də 1990-cı ildə BMT-nin İnsan İnkişafı haqqında ilk hesabatının təşəbbüskarı olmuşdur. Bu yeni konsepsiyanın nəzəri əsaslarını isə iqtisadi elmlər sahəsində Nobel mükafatı laureatı Amartya Sen daha da genişləndirmiş və təkmilləşdirmişdir. İnsan inkişafı konsepsiyasının banisi sayılan bu iki mütəfəkkirin fəaliyyəti sayəsində inkişaf anlayışına yeni nəfəs gəlmişdir. Bu gün inkişaf mərkəzində insanın durduğu bir proses kimi təyin edilir, inkişaf prosesi isə, yalnız maddi və iqtisadi rifahın toplanması deyil, insanlar üçün imkanların genişləndirilməsi kimi dəyərləndirilir. Dövrünün yenilikçi ideyası sayılan insan inkişafı yanaşması Məhbub ul Haqın təşəbbüsü və sonradan rəhbərliyi ilə BMT İnkişaf Proqramının ekspertlər qrupu tərəfindən təkmilləşdirildi və 1990-cı ildən etibarən, hər il nəşr olunan İnsan İnkişafı haqqında Qlobal Hesabatın konseptual bünövrəsinə çevrildi. BMT-nin İnsan İnkişafı haqqında ilk hesabatında müəyyən edildiyi kimi, “insan inkişafı” insanların seçimlərinin genişləndirilməsi prosesidir. Bu seçimlərdən ən vacibləri uzun və sağlam həyat yaşanması, təhsil əldə edilməsi və layiqli həyat şəraitidir. Əlavə seçimlərə siyasi azadlıq, insan hüquqlarının və özünə hörmət (ləyaqət) hissinin təminatı daxildir. İnsan inkişafı - insan həyatının bütün mərhələlərində və aspektlərində adamların daha geniş seçimlərə malik olmalarının təmin edilməsi prosesidir. “İnsan inkişafı” uzun, sağlam və yaradıcı həyat sürmək, dəyər verdikləri hər hansı məqsədlərə nail olmaq və hamı üçün ümumi olan planetdə ədalətli “İnkişafın” vəzifəsi yoxsulluğun ən bədbin təzahürləri üzərinə prinsipial hücumun təşkili kimi qəbul edilməlidir. İnsanlar istər fərd kimi, istərsə də qrup olaraq, insan inkişafının həm benefisiarları, həm də aparıcı qüvvələridir. İnsan inkişafı, sadəcə, təhsil və səhiyyəyə sərmayələrin qoyuluşu ilə insan qabiliyyətlərinin artırılmasından ibarət deyil. Bu modeldə artım və məşğulluq üçün əlverişli mühitdə həmin qabiliyyətlərin, bütövlüklə, istifadəsi imkanlarının yaradılması da nəzərədə tutulur. İnsan inkişafı modeli iqtisadi artımı mühüm şərt kimi qəbul edir, ancaq eyni zamanda, onun keyfiyyətinə və iqtisadi faydaların paylanması strukturuna, onun insan həyatı ilə əlaqəsinə və davamlılığına da xüsusi diqqət ayırır. İnsan inkişafı yanaşmasının ilk təqdimatından sonrakı 2 onillik ərzində, dünyada bir çox əhəmiyyətli dəyişikliklər baş vermiş və yeni qlobal çağırışlar (qlobal iqtisadi-maliyyə böhranı, iqlim dəyişikliyi, yeni geosiyasi proseslər və s.) ortaya çıxmışdır, nəticədə isə, inkişaf prioritetlərinə və strategiyalarına ənənəvi yanaşmalar, həmçinin, indiyədək bazar iqtisadiyyatı prinsiplərinin dominantlıq etdiyi inkişaf nəzəriyyələri yenidən araşdırılır. Müasir tarixi şəraitin özünəməxsusluğu ondan ibarətdir ki, yaşadığımız dövrdə müxtəlif ölkələrin sosial-iqtisadi, siyasi və sosial-mədəni inkişafının qarşılıqlı asılılığı və təsiri insanları qlobal çağırışlar və problemlər qarşısında birləşməyə vadar edir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# Səhər idmanı ürək xəstəliyinə necə təsir edir?

Səhərlər idmanla məşğul olmaq 2-ci tip diabet və ürək-damar xəstəliklərinin inkişaf riskini azaldır. Belə ki, mütəxəssislər səhər yeməyindən əvvəl ikiqat yağ əritmək üçün



məşq etməyi məsləhət görürlər, çünki bu vəziyyətdə bədənin insulinə reaksiyası yaxşılaşır.

Alimlər bunu müəyyən etmək üçün araşdırma aparıb. Altı həftə davam edən tədqiqatda artıq çəkili 30 kişi iştirak edib. Tədqiqatların sonunda mütəxəssislər qan şəkərinə nəzarət edilə biləcəyini müəyyənləşdirə biliblər. Onların fikrincə, bunu etmək üçün yalnız yemək və idman oynamaq vaxtını dəyişdirməlisiniz. Qeyd edilib ki, bir insan bütün gecə yemək yemirsə, səhər bədən ən böyük yağ tədarükünü istifadə edə bilər.

Mütəxəssislər həmçinin boş mədə ilə fiziki fəaliyyətin ümumi sağlamlığı əhəmiyyətli dərəcədə yaxşılaşdırdığını qeyd edirlər. Bu rejimlə bədən insulinə daha yaxşı cavab verir, bu da 2-ci tip diabet və ürək xəstəliyi riskini azaldır. Qeyd edək ki, ancaq bu günə qədər bu tədqiqatlar yalnız kişilər üzərində aparılıb. Bu rejimin qadınlar üçün nə qədər təsirli olduğunu elm adamları hələ dəqiqləşdirməyib.

Bundan əlavə, səhər idmanı diqqət dağınıqlığının qarşısını alır. Səhər saatlarında edilən qaçış zamanı bədənin gücü artır. Sinir sistemi yaxşı çalışdığından diqqət əksikliyi kimi problemlər effektli şəkildə düzəlir. Yuxu rejimini normala salır. Çünki sürətlənən maddələr mübadiləsindən sonra vücud normadan çox çalışır bu isə vücudun yorulmasına səbəb olur.

# Bu il Bakıda 870 nəfər infarkt keçirib

Bu il ərzində Bakıda 870 nəfər infarkt keçirməsilə bağlı Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət edib. Bu barədə Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım



Stansiyasının illik hesabatında qeyd edilib. Məlumatda bildirilir ki, reanimasyon tədbirlərin görülməsi nəticəsində çox ağır vəziyyətlərdən çıxarılaraq həyatı xilas edilən xəstələrin sayı 3600 nəfərdən çox olub. Ürək-qan damar xəstəlikləri ilə bağlı müraciətlərin sayı 78540, hospitalizasiya 13300, miokard infarktı ilə müraciətlərin sayı 870, hospitalizasiya 814, insultla müraciətlərin sayı 3600, hospitalizasiya 3200 olub.

Sinir sistemi xəstəlikləri ilə əlaqədar müraciətlərin sayı artdığından, belə xəstələrə göstərilən tibbi yardımın keyfiyyətini yüksəltmək məqsədi ilə, nevrologiya üzrə ixtisasartırma kurslarında dəfələrlə iştirak etmiş həkimlərdən ibarət xüsusiləşmiş briqadalar təşkil edilib.


## ELAN

**ADPU-nun İbtidai sinif müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Məmmədova Nəzrin Aslan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Şahbazov Məhəmməd-Emin İbrahim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun Coğrafiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Nəbiyeva Ləman Dursun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**




# Şəhid vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 98 faiz icra olunub

***Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meylləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr, dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar, vətəndaşına olan diqqət və qayğısının təzahürüdür.***



Son 16 ildə ölkə əhalisinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar, bu sahədə prinsipcə yeni vəzifələr yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin ilk aylarında imzaladığı fərman və sərəncamlar dövlətin yeni sosial paketinin işə başladığını göstərmiş oldu. İmzalanan sənədlər əsasında sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin və tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb.

Görülən işlər, bir daha təsdiq edir ki, ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində, əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb və insanların həyat səviyyəsi, davamlı olaraq yüksəlib.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 19 aprel tarixli Fərmanının şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində olan növbəti addım idi. 2019-cu il 28 yanvar tarixli Fərman isə, birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu.

Beləliklə, hər iki Fərmanın icrası üçün 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. Dövlət başçısının müvafiq Fərmanının icrası üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid hərbi qulluqçuların və şəhid polis əməkdaşlarının vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir. Belə ki, yaxın günlərdə, daha 94 şəhidin 160 vərəsəsinə birdəfəlik (11 min manat) ödəməverilləcək.

Birdəfəlik ödəmə vərəsələrin bank hesablarına köçürüləcək və bu barədə onlara rəsmi bildiriş göndəriləcək.

Məlumat üçün bildirək ki, ümumilikdə, 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Bu günədək onlardan, artıq 12 minədək şəhidin 18 minədək vərəsəsinin birdəfəlik ödəmə ilə təminatı həyata keçirilib. Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 98 faiz icra olunub.

***ZÜMRÜD***

# “Bakcell” və “ASAN Məktub” leykemiyadan əziyyət çəkən uşaqlar üçün bayram şənliyi təşkil edib

“Bakcell” şirkəti və “ASAN Məktub” leykemiyadan əziyyət çəkən uşaqlar üçün Yeni il münasibətilə bayram şənliyi təşkil edib. “ASAN Məktub” layihəsinin “Bakcell”in tərəfdaşlığı və “Persona Agency”nin dəstəyi ilə keçirilmiş növbəti təşəbbüsünün məqsədi leykemiyadan əziyyət çəkən 35 uşağa bayram sevincini bəxş etmək idi. B.Eyvazov adına Azərbaycan Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda müalicə alan uşaqlarda bayram əhval-ruhiyyəsi yaratmaq üçün buraya səfər təşkil edilib, balacalara hədiyyələr təqdim olu-



nub.

“ASAN Könüllüləri” Təşkilatının “ASAN Məktub” layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır. Layihə çərçivəsində uşaqların yazdığı məktublar “www.asanmektub.az” saytına yerləşdirilir və onların arzu və istəkləri müxtəlif şirkətlər və xeyirxah vətəndaşlar tərəfindən gerçəyə çevrilir. “Bakcell” şirkəti layihəyə, həmçinin mobil rabitə dəstəyi göstərir.

“Bakcell” xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək, onlar üçün bərabər hüquqların, inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrdə fəal iştirak edərək minlərlə uşağa dəstək göstərib. “ASAN Məktub” layihəsi ilə uzunmüddətli tərəfdaşlıq “Bakcell” şirkətinə uşaqları sevindirmək və onların saf arzularını həyata keçirmək üçün daha böyük imkan yaradıb.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600